Akademik Tarih ve Düşünce Dergisi
Published by Winter 2022 / 9-4
https://dergipark.org.tr/tr/pub/atdd https://doi.org/10.46868/atdd.

# I Şah Abbasın islahatları

**Tofiq Nəcəfli***
**ORCID-0000-0002-1893-2012**

**Xülasə**

XVI əsrin sonlarında Səfəvi imperiyası ağır böhran içində idi. Osmanlı imperiyası ilə müharibədə uğursuzluq siyasi böhranı daha da ağırlaşdırmışdı. Bu dövrdə demək olar ki, müstəqil olan və bir-birinə qarşı mübarizə aparmaqdan usanmayan Qızılbaş əmirlərinin mərkəzi hakimiyyətə tabe olmamaq cəhdləri vəziyyəti daha da ağırlaşdırmışdı. Məhz belə bir gərgin dövrdə, 1587-ci ildə Səfəvi taxt-tacına Şah Abbas gətirildi. I Şah Abbas Qızılbaş əmirlərinin itaətsizliyinə son qoymaq, ayrı-ayrı vilayətlərdə onların müstəqillik cəhdlərinin qarşısını almaq, onların mənsub olduqları tayfalarla əlaqələrini zəiflətmək mərkəzi hakimiyyəti möhkəmləndirmək və güclü nizami ordu yaratmaq məqsədilə mühüm islahatlar həyata keçirməyə başladı. I Şah Abbasın islahatları nəticəsində Səfəvi imperiyası nəinki əvvəlki qüdrətini bərpa etdi, hətta daha da gücləndi. Qızılbaş əyanlarının özbaşınalığına son qoyuldu, yerlərdə ayrı-ayrı "sülalə hakimlərinin" aradan qaldırılması nəticəsində mərkəzi hakimiyyət möhkəmləndirildi və tam siyasi sabitlik bərqərar oldu. Dövlətin əsas dayağı olan daimi nizami ordu yaradıldı, dövlətin müdafiə qabiliyyəti gücləndirildi. Qısa müddət ərzində işğal olunmuş torpaqlar azad edildi və Səfəvi imperiyası Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından birinə çevrildi.

**Açar sözlər:** Səfəvi imperiyası, Osmanlı imperiyası, Qızılbaş əmirləri, I Şah Abbas, I Şah Abbasın islahatları

**Gönderme Tarihi: 09/07/2022** **Kabul Tarihi:01/12/2022**

---

* *Dosent, AMEA A.A.Bakıxanov adına Tarix institutunun "Orta əsrlər tarixi" şöbəsinin müdiri, Bakı- Azərbeycan, tofignajafli@gmail.com*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
NƏCƏFLİ, T., " I Şah Abbasın islahatları''**,** *Akademik Tarih ve Düşünce Dergisi,* C. 9, S. 4, 2022, s. 1938-1969.

# The Reforms of Shah Abbas I

**Tofig Necefli***
**ORCID-0000-0002-1893-2012**

**Abstract**

At the end of the 16th century, Safavid Empire was in a serious crisis. The political crisis was exacerbated by failure in the war with the Ottoman Empire. During this period, the attempts of Qizilbash emirs, who were almost independent and did not weary of fighting against each other, to disobey the central government were further aggravated the situation. It was in such a hard time, in 1587, that Shah Abbas was brought to the Safavid throne. Shah Abbas I began to implement important reforms, the main aims of which were to put an end to the disobedience of the Qizilbash emirs, to prevent their attempts to pursue independence in provinces, to weaken their ties with the tribes they belong to, to strengthen the central government, and to create a strong regular army. As a result of the reforms of Shah Abbas I, the Safavid empire not only regained its former might (strength), it even became stronger. The disobedience of arbitrary Qizilbash emirs was brought to an end, as a result of the elimination of individual "dynastic rulers" in the provinces, the central authority was strengthened and total political stability was established. The standing army, a main pillar of the state, was created, and the defense capacity of the state was strengthened. In a short time, the occupied lands were liberated, and the Safavid empire became one of the most powerful empires in the Near and Middle East.

**Keywords:** Safavid Empire, Ottoman Empire, Qizilbash emirs, Shah Abbas I, reforms of Shah Abbas I

**Received Date: 09/07/2022** **Accepted Date: 01/12/2022**

---

**Associate professor, Azerbaijan National Academy of Science Head of the "History of the Middle Ages" department of the Institute of History named after A.A. Bakikhanov, Baku - Azerbaijan, tofignajafli@gmail.com*

***You can refer to this article as follows:***
NƏCƏFLİ, T., " I Şah Abbasın islahatları'', *Academic Journal of History and Idea*, Vol. 9, Issue 4, 2022, p. 1938-1969.

## Giriş

XVI əsrin son rübündə Osmanlı imperiyasının sərhədlərindən Hindistana qədər uzanan böyük Səfəvi imperiyası ağır böhran içində idi. Taxt-tac az qala kor, iradəsiz və zəif xarakterli Şah Məhəmməd Xudabəndənin əlində idi. Dövlətə faktiki rəhbərliyi onun arvadı Məhdi Ülya ləqəbli Xeyrannisə bəyim və oğlu, Osmanlılar üzərində bir sıra parlaq qələbələr qazanmış bacarıqlı sərkərdə Həmzə Mirzə edirdilər. Onlar demək olar ki, müstəqil olan və bir-birinə qarşı mübarizə aparmaqdan usanmayan əmirlərin – Qızılbaş tayfaları başçıları üzərində özlərinin mərkəzi idarəçiliklərini qurmaq üçün uğursuz siyasət yeridirdilər.

Xəzinə talandığına, xalq var-yoxdan çıxdığına görə ölkədə yaranmış ağır vəziyyətdən istifadə edən Osmanlı imperiyası və Krım tatarlarının aramsız yürüşləri böhranı daha da ağırlaşdırdı. Aparıcı Qızılbaş əmirləri ilə Məhdi Ülya arasındakı münasibətlərin gərginləşməsi də Qızılbaş qüvvələrini müdaxiləçilərə qarşı səfərbər etməyə maneçilik törədirdi. Qızılbaş əmirləri şahın xanımını türk-Qızılbaş əmirlərinin hüquqlarını tapdamaqda və rəhbər vəzifələrə mazandaranlı əyanları irəli çəkməkdə ittiham edirdilər. Nəhayət, Qızılbaş əmirləri sui-qəsd təşkil edərək, Məhdi Ülya və anasını hərəmxanada qətlə yetirərək vəziyyətə nəzarət etməyə çalışırlar.

Bu zaman Xorasanda da sabitlik pozulur. Şah Məhəmməd Xudabəndənin oğlu Abbas Mirzənin lələsi və Herat hakimi olan Əliqulu xan Şamlı Məşhəd hakimi Mürşüdqulu xan Ustaclı ilə ittifaqa girərək, mərkəzi hakimiyyətə tabe olmaqdan imtina edirlər. Üsyançılar Əliqulu xan Şamlını özlərinin başçısı – “xanlar xanı” elan edirlər. Buna cavab olaraq Qəzvindəki şah tərəfdarı olan Qızılbaş əmirləri Əliqulu xanın valideynlərini və mənsub olduğu Şamlı tayfasının nümayəndələrini qətlə yetirirlər. Bundan sonra 1581-ci ildə Xorasan əmirləri şahzadə Abbası şah elan edirlər. Şamlı və Ustaclı tayfaları arasında mübarizə kəskinləşir və Mürşüdqulu xan Ustaclı bu mübarizədən qalib çıxır.

Bu vaxt Qəzvində faktiki hökmranlıq Həmzə Mirzənin əlində idi. Lakin o, Osmanlı ordusunun bir neçə hücumunu dəf etsə də, 1585-ci ildə Osmanlılar Təbrizi ələ keçirərək yerləyeksan edir, əhalini qılıncdan keçirirlər. Həmzə Mirzənin siyasətindən narazı qalan Qızılbaş sərkərdələri ona sui-qəsd hazırlayırlar. 1586-cı il dekabrın 10-da Həmzə Mirzə Gəncə yaxınlığında Xoydan olan erməni dəlləyi Xudaverdi tərəfindən öldürülür. Şahzadənin ölümündən və saraydakı çəkişmələrdən istifadə edən Osmanlılar hücumlarını genişləndirərək,

az qala bütün Azərbaycanı işğal edirlər. Eyni zamanda özbəklər də Xorasan üzərinə yürüş edirlər.

## 1-I Şah Abbasın Hakimiyyətə Gəlməsi Və Mərkəzi Hakimiyyəti Möhkəmləndirmək Tədbirləri

1587-ci ildə daxili çəkişmələr və xarici hücumların Səfəvi dövlətinin qüdrətini sarsıtdığı çox ağır bir şəraitdə cəsur və vətənpərvər Mürşüdqulu xan Ustaclı başda olmaqla türk Qızılbaş əmirləri tərəfindən Abbas Mirzə Qəzvində taxta çıxarıldı.[1] Bu zaman Azərbaycan ərazisinin çox hissəsi Osmanlıların, Xorasan vilayəti isə Şeybanilərin nəzarəti altına keçmişdi. Belə ağır bir şəraitdə hakimiyyətə gələn Səfəvi şahı Osmanlı sultanı ilə sülh bağlayaraq başlıca diqqəti dövlətin daxili sabitliyini təmin etməyə yönəltdi.

I Şah Abbas (1587-1629) xarici işğallara məruz qalmış və daxilən zəifləmiş dövləti məhv olmaqdan xilas etmək, Qızılbaş əyanlarının özbaşınalığına son qoymaq və itirilmiş əraziləri geri qaytarmaq məqsədilə inzibati idarə sistemi, ordu quruculuğu və sosial-iqtisadi sahələrdə islahatlar keçirdi.

I Şah Abbasa qədər Səfəvi dövlətində bütün hakimiyyət hərbi-köçəri feodal Qızılbaş əmirlərinə məxsus idi. Əyalət, vilayət və şəhər hakimləri onların içərisindən təyin edilirdi. Bütün ölkə Qızılbaş əmirləri arasında bölüşdürülmüş, onların idarəçiliyinə verilmişdi. Qızılbaş əmirləri o qədər güclü idilər ki, idarəçiliklərində olan əraziləri müstəqil hökmdar kimi idarə edirdilər.[2]

I Şah Abbas hakimiyyətinin elə ilk anlarından mərkəzi hakimiyyəti möhkəmləndirmək istiqamətində tədbirlərə başladı. Oruc bəy Bayatın fikrincə, o, hakimiyyətinin ilk ilində "dövlət işlərində düzəlişlər" həyata keçirdi.[3] Hakimiyyətinin elə ilk həftəsində I Şah Abbas güclü mərkəzi hakimiyyətin yaradılmasında və şahın lələsi olan Mürşüdqulu xan Ustaclının nüfuzunun artmasında maraqlı olmayan Qızılbaş əmirlərinin təzyiqi ilə üzləşdi. Qızılbaş əmirləri arasında Şiraz hakimi Mehdiqulu xan, qorçubaşı Yusif xan, möhrdar Əliqulu xan Zülqədər, Əbülməsum Türkman və Kor Qorxmaz Xüləfa Mürşüdqulu xanın davranışlarından, iqtidarından narazı olduqlarına görə onu aradan götürmək məqəsədilə öz aralarında razılığa gəldilər.[4] I Şah Abbas Qızılbaş əmirlərinin gözlənilən qiyamının qarşısını almaq məqsədilə

---

[1]İsgəndər bəy Münşi, *Tarix-i aləmara-yi Abbasi*, (Farscadan tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifləri AMEA-nın müxbir üzvü, t.e.d., prof. Oqtay Əfəndiyev, t.e.n. Namiq Musalı), Təhsil Bakı 2009, s. 690.
[2]Hikmət Abdullayev, *Azərbaycan Səfəvi dövlətinin daxili və xarici siyasəti*, "Apostrof-A", Bakı 2022, s. 43.
[3]Rossiya i Yevropa glazami Orudzh-Beka Bayata-Don Zhuana Persidskogo, (Perevod s angliyskogo, vvedeniye, kommentarii i ukazateli Oktaya Efendiyeva i Akifa Farzaliyeva), İzd-vo SPbGU, Sankt-Peterburg 2007, s. 133.
[4]İsgəndər bəy Münşi, *Dünyanı bəzəyən Abbasın tarixi, I Kitab,* (Fars dilindən çevirən Şahin Fərzəliyev, tarix elmləri doktoru, professor), Şərq-Qərb, Bakı 2010, s. 722.

Qorxmaz xan Şamlını onların yanına göndərib qiyamın səbəbini və onların iddialarını öyrənməyi tapşırdı. Narazı əmirlər bildirdilər ki, onlar Mürşüdqulu xanın hakimiyyətdə olması və iqtidarı ilə razı deyillər və onun şahın adından onlarla pis rəftarı ilə razılaşa bilməzlər.[5] Səfəvi şahı narazı əmirlərlə görüşü zamanı bildirdi ki, "sizlər bu dərgahın mülazimlərisiniz, əgər dövlətxanə barədə bir fikir xatirinizə düşərsə, yaxud Mürşüdqulu xanın, ya başqa adamların iş rəftarından nəsə bir şikayətiniz olarsa, qayda belədir ki, yalnız bizə ərz etdikdən sonra fərmanımıza uyğun olaraq nəyinsə icrasına başlaya bilərsiniz".[6] Səfəvi şahının müəyyən etdiyi əmirlərlə görüş zamanı Şiraz hakimi Mehdiqulu xan Zülqədər bildirdi ki, "Mürşüdqulu xan şaha heç nəyi bildirmədən öz xeyri naminə məmləkətin bütün işlərini aparır, şahın mübarək möhürlərini boynundan asıb, hər şeyi öz bildiyi kimi həll edir". Buna son qoymaq üçün möhürlər ondan alınaraq "hərəmxanada saxlanılsın, hər həftədə iki gün divan çağırılsın, divanda hər birinin öz mənsəbi olan və öz oymaqlarının ağsaqqallığını edən əzəmətli əmirlər toplaşsınlar, hər tayfanın ülka və qoşun işləri tayfa ağsaqqallarının məsləhəti və təsdiqi ilə həyata keçsin ki, Qorçubaşının, əzəmətli qorçularin, dövlətin sütunları olan hər bir əmirin öz el və oymaqları içərisində izzəti və ehtiramı olsun".[7] Lakin onun bu tələbi rədd edildi və bildirildi ki, hələ Şah Məhəmməd Xudabəndənin dövründə Qızılbaş əmirlərinin dövlət işlərinə qarışması, onların arasında baş verən çəkişmələr mütəmadi iğtişaşların baş verməsinə səbəb olduğuna görə indi bunlara yol verməк olmaz.[8]

Düzdür, I Şah Abbasda da, Mürşüdqulu xanın davranışından, onun bir çox məsələlərə qarışdığından və iqtidarından narazı idi, lakin hüsni-tədbirlə Mürşüdqulu xanın tərəfini tutaraq, dövlətxanaya icazəsiz gələn, əksəriyyəti qiyam yolu ilə əyalət hakimliyinə və böyük mərtəbəyə qalxan və tayfa başçıları kimi özünəxas rəftara malik olan həmin üsyankar əmirləri aradan götürməyi qərara aldı, çünki o camaatı dəf etməkdən ötrü bundan yaxşı bəhanə ələ düşə bilməzdi.[9] Buna görə yaranmış vəziyyətdən istifadə edən I Şah Abbas qiyamçı əmirləri cəzalandırmaq əmrini verdi.

Hadisələrin iştirakçısı olan Oruc bəy Bayatın yazdığına görə, "elə birinci gün, yeni hökmdara sədaqət andiçməsi mərasimi bitən kimi I Şah Abbas əmr etdi ki, ertəsi gün bütün xanlar və qoşun başçıları silahsız, mülki geyimdə saraya gəlsinlər. Şah onlarla dövlətin düzgün idarə olunmasını təmin edəcək Divan, yaxud Dövlət şurası təşkil etmək barədə

[5]İ. B. Münşi, *a.g.e., I Kitab,* s. 723.
[6]İ. B. Münşi, *a.g.e., I Kitab,* s. 724.
[7]İ. B. Münşi, *a.g.e., I Kitab,* s. 725.
[8]İ. B. Münşi, *a.g.e., I Kitab,* s. 725.
[9]İ. B. Münşi, *a.g.e., I Kitab,* s. 723.

məsləhətləşmələr aparmaq istəyir. Səhəri gün xanlar və komandirlər şahın hüzuruna girəndə Şah Abbasın taxta oturduğunu və sağ tərəfində atası gözdən zəif Məhəmməd Xudabəndənin olduğunu gördülər. Hamı əmrə müntəzir olarkən Şah Abbas özünün gürcülərdən ibarət qvardiyasına gizli tapşırır ki, sarayın və onun qarşısındakı meydanın bütün giriş və çıxış qapılarını bağlasınlar. Sonra şah yığışanlara belə bir sualla müraciət edir: "Öz şahzadəsini qətlə yetirən adam hansı cəzaya layiqdir?" hamı bir ağızdan belə rəy söyləyir ki, şahzadəsini qətlə yetirmiş təbəə öldürülməlidir. Bu hökm çıxarılan kimi, Şah Abbasın işarəsi ilə gürcü qvardiyaçılar bir göz qırpımında içəridə olan qəsdçilərin boğazına çökür və nizələrə keçirilmiş 22 baş sarayın pəncərələrindən çölə çıxarılır ki, xalqa görk olsun. Bu dəhşətli səhnə ən özündən deyən adamlarda da qorxu və vahimə doğurur".[10] Öldürülən Qızılbaş əmirləri arasında Mehdiqulu xan Zülqədər, Əbülməsum xan Türkman, möhrdar Əliqulu Sultan, Mirzə Abdulla Mirzə Salman oğlu, qardaşı Mirzə Nizamülmülk, Əmiraslan xan və başqaları var idi. Yalnız Mürşüdqulu xanın səyi nəticəsində Qorçubaşı Yusif xan öldürülməyərək qalada zindana salındı.[11]

I Şah Abbas qardaşı "Əbu-Talib mirzə tərəfdarı olan xanları öz şəhid edilmiş səadətli qardaşının qanına baiskar bildi və xəlifələrə, ağsaqqallara xitab edərək, qardaşının qanının qisasını tələb etdi. Bütün Qızılbaş tayfaları razılıq verib, hökmdarın sözünü təsdiq etdilər". Əmrə əsasən Əbu-Talib mirzənin tərəfdarı olan İsmayılqulu xan, Əliqulu xan, Məhəmməd bəy Sarısolaqlı, Əhməd bəy Asayişoğlu və Rzaqulu bəy İnallı edam edildilər.[12]

I Şah Abbas Qızılbaş əyanlarının özbaşınalığına son qoymaq üçün silah gəzdirməyin yalnız Qızılbaşlara məxsusluğu qaydasını ləğv edərək digər xalqlara da silah saxlamaq hüququ verdi. O, tayfa başçısı vəzifəsinin irsən ötürülməsi qaydasını da ləğv etdi. Bundan sonra çox böyük səlahiyyət sahibi olan bu vəzifə yalnız şahın etimadını qazanan şəxslərə etibar olunurdu. Şah mərkəzi hakimiyyətə tabe olmayan nüfuzlu Qızılbaş əmirlərini vəzifələrdən uzaqlaşdıraraq gənc əmirlərlə əvəz etdi. Saray əyanlarının müqavimətini qıran I Şah Abbas mərkəzi hakimiyyətin nüfuzunu artırmaq üçün hətta onu taxta çıxarmış Ustaclı və Şamlı əmirlərinin gücünü sarsıtmaqdan, həmin əmirlərin "himayəsindən" xilas olmaq üçün onları iqtidardan uzaqlaşdırmağa başladı. I Şah Abbasın hakimiyyətdə möhkəmlənməsini təmin etmiş olan "Mürşüdqulu xanın pis rəftarı öz həddini aşaraq ifrat sərhədinə çatdığı"[13] üçün 1588-ci ildə onun qətlinə razılıq verildi. Bistamın Şahrud adlı yerində ordu qərargahında Mürşüdqulu xan

---

[10]Rossiya i Yevropa glazami Orudzh-Beka Bayata-Don Zhuana Persidskogo, s. 133.
[11]İ. B. Münşi, *a.g.e., I Kitab,* s. 726-727.
[12]İ. B. Münşi. *Tarix-i alam ara-yi Abbasi,* s. 701.
[13]İ. B. Münşi, a*.g.e., I Kitab,* s. 759.

yatağında ustaclı tayfasından olan Ümmət bəy Qarasarlı, ox və kaman qorçusu Qara Həsən Çavuşlu tərəfindən öldürüldü.[14]

"Şah belə məsləhət gördü ki, oymaqlardakı fitnəkarları aradan götürsünlər ki, Qızılbaşlar arasından fitnə-fəsad yığışsın, məşhur Qızılbaş tayfaları arasında oymaq təəssübkeşliyi qalmasın, onların hamısı sadiq havadarlardan olsunlar, şahla yekdillik etsinlər, onun əmrinə müti və bağlı qalsınlar".[15] Mürşüdqulu xanın qətlindən bir gün sonra vəkil vəzifəsinə iddialı olan Məhəmməd xan Türkman da edam olundu. "Mürşüdqulu xanın qətlindən vahiməyə düşən Ustaclı tayfası bu vaqiədən sevinib, şahanə şəfqətə ümidvar oldu. Başqaları da baş vermiş bu iki hadisədən ibrət götürüb şah cəzasından qorxdular və ayaqlarını ədəb ətəyinə doladılar".[16]

Səfəvi şahının həyata keçirdiyi sərt tədbirlər nəticəsində ölkədə nizam-intizam qaydaya salındı. İsgəndər bəy Münşi bu barədə yazır: "Səltənət işlərinin ən mühümü məmləkətin sabitliyi və yolların əmin-amanlığıdır... məmləkətdə bu qayda itib-batmışdı və camaatın yollarda hərəkəti və gediş-gəlişi olduqca çətinləşmişdi. O həzrət hakimiyyətinin başlanğıcında bu qarışıqlığın aradan qaldırılmasına girişib, hər vilayətdə ən böyük yolkəsənlərin kimlər olduğunu müəyyənləşdirdi və bu təbəqənin yox edilməsinə və edam olunmasına səy göstərdi. Qısa zaman ərzində bu güruhun əksər başçıları onun gözəl səy və tədbirləri sayəsində ələ keçirildilər".[17] I Şah Abbas çox yaxşı bilirdi ki, qısa müddət ərzində bütün Qızılbaşları ram etmək mümkün deyildir. Buna görə də ilk növbədə onları zəiflətmək, bu tayfalara özünə sədaqətli adamları başçı təyin etmək nəzərdə tutulmuşdu. Bir çox hallarda ayrı-ayrı vilayətlərə və hətta Qızılbaş tayfalarına qulamlar rəhbər təyin edilirdilər. Fars vilayətinin hakimi Allahverdi xanın oğlu Davud xan Qarabağa bəylərbəyi və qacar tayfasının başçısı təyin edilmişdi, halbuki, buna qədər Qarabağ bəylərbəyiliyi vəzifəsini Ziyadoğlu Qacarlar tuturdular.[18] Lahican şəhərinin darğası Qazax xan Çərkəs Zülfüqar xan və Yusif xanın yerinə Şirvan bəylərbəyi təyin edildi və eyni zamanda orada yaşayan qaramanlı və çavuşlu tayfasının başçısı təyin edildi.[19] Fərrux Sultan Yutəm Sultanın əvəzinə Şirvana tabe olan Dərbənd və Şabranın hakimi təyin olundu, bayat, rumlu tayfasından toplanan qoşuna başçılıq etdi.[20] Yeni

[14] İ. B. Münşi, a.*g.e., I Kitab,* s. 759; Cihat Aydoğmuşoğlu, *Şah Abbas ve zamanı (1587-1629),* Berikan Yayınevi, Ankara 2013, s. 101.
[15] İ. B. Münşi, *a.g.e., I Kitab,* s.760.
[16] İ. B. Münşi, *a.g.e., I Kitab,* s. 761.
[17] İ. B. Münşi, *Tarix-i aləmara-yi Abbasi,* s. 708.
[18] İsgəndər bəy Münşi, *Dünyanı bəzəyən Abbasın tarixi, II Kitab,* (Fars dilindən çevirən Şahin Fərzəliyev, tarix elmləri doktoru, professor), Şərq-Qərb, Bakı 2014, s. 1886.
[19] İ. B. Münşi, *a.g.e.,, II Kitab,* s. 1819, 1923; H. Abdullayev, *a.g.e.,* s. 47.
[20] İ. B. Münşi, *a.g.e., II Kitab,* s. 1923.

təyin olunmuş qulamlar həm tayfalar, həm də həmin tayfaların hərbi birləşmələrinə rəhbərlik edirdilər.

I Şah Abbasın həyata keçirdiyi tədbirlərdən sonra ayrı-ayrı vəzifələrə qeyri-Qızılbaş tayfasından olan əmirlər gətirilsə də, Qızılbaş, eləcə də digər türk tayfaları dövlət idarəçilik sistemində mühüm rol oynayaraq hələ də yüksək vəzifələrdəki mövqelərini qoruyub saxlamışdılar.

I Şah Abbas, bütün səltənəti boyunca üç mühüm məsələyə xüsusi diqqət yetirmişdi: Mərkəzi bürokratiya, əyalət rəhbərliyi və ordu. I Şah Abbasın zamanında idarəetmə sistemində və ictimai nizamın ən yüksək zirvəsində şahın özü dayanırdı. Şahın paytaxtdakı sarayı bürokratiyanın ən yüksək mövqeyindən xəbər verirdi. Sarayın yüksək çinli məmurları, baş vəzir, əmirül-ümərа (sonralar ordunun baş komandanı – sipəhsalar adlanır) və dini işlərdən məsul olan şeyxülislam idi. Daha sonra yüksək rütbəli hərbçilər, dini elita (üləma), xəzinədar və sarayın digər nüfuzlu əmirləri gəlməkdə idi.[21]

Səfəvi dövlətində idarəetmə mexanizmi üç yerə bölünürdü: Bürokratiyanın başı hesab olunan dövlətxana (hökmdar sarayı), maliyyə təşkilatları və mühakimə. Təbiidir ki, bunlar da öz içlərində dərgah və divanlara bölünürdü. Dövlət rəhbərliyində ən səlahiyyətli mövqe Ali Divana məxsus idi. Ali Divanın üzvləri baş vəzir, mustovfi-məmalik (Mühasib), sədr və əmirül-ümərа idi. Maliyyə ilə əlaqədar təşkilatlara bilavasitə şah və ya baş vəzir tərəfindən nəzarət edilirdi. Mustovfi isə vergilərin miqdarlarının təyin olunmasından, bütün vergilərin toplanmasından və büdcənin hazırlanmasından məsul idi. Ali Divanın üzvü olmayan möhtəsibül-məmalik adlı bir vəzifəli şəxs daha vardı ki bunun vəzifəsi, ölkədəki hər cür əmtəənin (yemək və geyəcək) təyin etməsi idi.[22]

Səfəvi dövləti I Şah Abbas dövründə iki idarə tərəfindən idarə olunurdu: dövlət idarəsi (“divani-məmalik”) və xassə idarəsi (“divani-xassə”). Hər iki idarə şah tərəfindən təyin edilən vəzir tərəfindən idarə edilirdi. Lakin idarəçilikdə etimadüddövlə tərəfindən idarə edilən “divani-məmalikə” üstünlük verilirdi. Xassə vəziri şahın bütün əmlakını idarə edirdi və birbaşa baş vəzirə tabe idi. Baş vəzir Səfəvi dövlətinin bütün işlərini idarə edirdi və onun dayağı hesab edilirdi. Baş vəzir yuxarıdan aşağıya qədər bütün rəsmi dövlət vəzifələrinə təyinatları təsdiq edir, maliyyə işlərinə rəhbərlik, vergilərin toplanmasına və ölkə ərazisində qanunlara riayət

[21]Mohammad A. Mousavi, “The Autonomous State In Iran: Mobility And Prosperity in The Reign Of Shah Abbas The Great (1587-1629)”, *Iran And The Caucasus*, 12, 2008, p. 24; Cihat Aydoğmuşoğlu, “Şah Abbas (1587-1629) Zamanında Safevi Devlet Teşkilatında Yapılan Düzenlemeler”, *Türk Dünyası Araştırmaları*, S. 204, Haziran 2013, s. 85.
[22]M. A. Mousavi, a.g.m., s. 25.

olunmasına nəzarət edir, xarici siyasət məsələləri ilə məşğul olur, elçiləri təsdiq edir və müqavilələr bağlayırdı.[23]

I Şah Abbasın ilk baş vəziri Mirzə Lütfülla Şirazi olmuşdu. 1589-cu ildə "vəzir və etimadüdövlə olan Mirzə Lütfülla Şirazi şahın iltifatına nail olaraq, vəzarətə layiq görüldü, ona adlı-sanlı əmirlərə xas olan xələt, tac, qızıl kəmər, yəhərli at, qızıl üzəngi, qızıl sapla tikilən araxçın, bayraq və nağara verildi".[24] Maraqlıdır ki, əvvəllər belə təmtəraqlı mükafatlarla Qızılbaş əmirləri mükafatlandırılırdı. Lakin I Şah Abbas 1592-ci ildə oğlunun nalayiq hərəkətlərinə görə baş vəzir Mirzə Lütfülla Şirazidən incidiyinə görə onu vəzirlikdən kənar edib, ağıllı, tədbirli, əxlaqlı və mustovfi əl-məmalik olan Hatəm bəy Ordubadini həmin yüksək vəzifəyə təyin etdi və o etimadüddövlə ləqəbinə layiq görüldü.[25] Hatəm bəy Ordubadi Ordubadın yerli əyan ailəsindən idi. Bu ailənin üzvləri uzun müddət Səfəvi şahlarının xidmətində olmuşdular. Hatəm bəy Ordubadinin qardaşı Əbu Talib bəy uzun müddət Xorasanda I Şah Abbasın ləләsi olmuş Əliqulu xan Şamlının mustovfisi vəzifəsində xidmət göstərmişdi. 1588-ci ildə Herat şəhəri II Abdulla xan tərəfindən mühasirəyə alın zaman o, sülh təklifi ilə özbəklərin yanına göndərilmişdi, lakin elçilərin öldürülməsi yolverilməz sayılsa da, II Abdulla xan buna əməl etməmiş və onun göstərişi ilə Əbu Talib bəy topun ağzına qoyularaq qala istiqamətində atılmışdı.[26]

Hatəm bəy Ordubadi 20 ilə yaxın etimadüddövlə vəzifəsində I Şah Abbasın Səfəvi dövlətində həyata keçirdiyi islahatların fəal iştirakçısı oldu. Şah bir çox mürəkkəb məsələlərin həllini ona həvalə edirdi. O, dövlətdə o qədər böyük nüfuza sahib idi ki, İsgəndər bəy Münşi onu dövlətin görkəmli şəxsiyyətləri siyahısında birinci yerdə göstərir.[27]

I Şah Abbasın hakimiyyəti dövründə dövlət idarəçilik aparatında ən mühüm yeri "dövlətdə dövlət" hesab edilən xassə idarələri tuturdu. Xassə mülklərini idarə etmək üçün xüsusi dəftərxana, məmurlar aparatı fəaliyyət göstərirdi. Xassələrin idarəçiliyinə vəzir və "mustovfi-xassə" rəhbərlik edirdi. "Mustovfi-xassə" xassələrin maliyyə işləri ilə məşğul olurdu və öz mövqeyinə görə "mustovfi-məmmalik"dən aşağıda dururdu. Əyalətlərdə də xassə idarəsinin nümayəndələri fəaliyyət göstərirdi və onlar xassə torpaqlarından gələn gəliri xüsusi dəftərlərdə qeydə alırdılar.[28] Mustovfi-xassə vəzifəsi daimi deyildi. "Nə vaxtsa keçmiş

---

[23]Vladimir Minorsky, *Tadhkirat al-Muluk. A Manual of Safavid Administration*, (Persian Text in Facsimile. Translated and explained by V. Minorsky), Cambridge 1980, p. 115; H. Abdullayev, *a.g.e.*, s. 57.
[24]İ. B. Münşi, a.*g.e.*, *I Kitab*, s. 771-772, 810; H. Abdullayev, *a.g.e.*, s. 55-56.
[25]İ. B. Münşi, a.*g.e.*, *I Kitab*, s. 824; H. Abdullayev, *a.g.e.*, s. 56.
[26]İ. B. Münşi, a.*g.e.*, *I Kitab*, s. 731; H. Abdullayev, *a.g.e.*, s. 56.
[27]İ. B. Münşi, a.*g.e.*, *II Kitab*, s. 1929; H. Abdullayev, *a.g.e.*, s. 56.
[28]H. Abdullayev, *a.g.e.*, s. 58.

hökmdarlardan birinin dövründə sözügedən vəzifə Mirzə Haşimə həvalə edilmişdi. Yeddi-səkkiz aydan sonra vəzifənin faydasız olduğu aşkarlandı və ləğv edilib. Adı çəkilən vəzifənin ləğvi ilə bağlı verilən sərəncamda belə bir izahat verilmişdi: mustovfi və katiblər, vəzirlər, təsərrüfat mühasibləri, müavinət yığanlar, gəlir vergisi toplayanlar vaxtilə xüsusi təyin olunmadığından, gecikmə səbəbindən, məbləğlərin hesablanması ödəyicilərə həvalə edilmişdir. Şah Abbasın dövründən beş il əvvələ qədər borclar idarəsi var idi və əslində heç bir mustovfi-xassə təyinatı tələb olunmurdu. Dəftərlərin düzgün göstəricisi olmadığı üçün ödəyicilər məbləğləri saxlamışlar ki, mədaxil, məsrəflər və dəftərlərin göstəricisi dəqiqləşdirildikdən sonra üzə çıxsın”.[29]

Xassə idarələrinə “mustovfi-xassə”nin təyin edilməsindən sonra vəziyyət nizama düş-məyə başladı. Belə ki, hər hansı bir vacib məsələ ilə bağlı ətraflı məlumat tələb olunurdusa, onları aydınlaşdırmaq üçün bütün əsas dəftərxana kitablarına və qeydlərinə müraciət etmək lazım idi. Əgər hər hansı sənəd lazım idisə, göstərilən iş üzrə tapşırığı alan katiblər öz səylərini əsirgəmədən onun öhdəsindən gəlirdilər; zəruri məlumatları qeyd edərək mustovfi-xassəyə, həmçinin vergi yığanların və digər mühasiblərin mədaxil və məxaric sənədlərini, mədaxil və məxaric haqqında mövcud sərəncamları təhvil verdilər.[30] Vəzirlər və vergi yığanlar tərəfindən imzalanmış ayırmalar və digər təsdiq edilmiş məsrəf sənədləri yuxarıda adı çəkilən mustovfi-xassənin imzasına təqdim olunurdu ki, o, öz katibləri ilə birlikdə bütün əmr və sərəncamları qeydiyyata alsın və onların əsasında hər ay döyüşçülərin saylarının siyahısını və xərclərini tərtib etsin, hazır vəziyyətdə saxlasın və zərurət yarandıqda onu təqdim etsin.[31] Onun vəzifəsi müvafiq olaraq həlak olmuş əsgərlərin, yürüşdən qayıdanların, yürüşlərdə iştirak edənlərin və etməyənlərin məxaric hesabatlarını təqdim etmək, hər bir adın altında işarə qoymaq, həmçinin vəzirlərin, vergi yığanların və başqalarının mədaxil vərəqlərində qeydlər aparmaq idi. Mustovfi-xassənin illik məvacibi yüz tümənə bərabər idi.[32] I Şah Abbasın hakimiyyəti illərində mərkəzi dövlət aparatında çalışanların sayı xeyli artmışdı. Adam Oleari mərkəzi dövlət aparatında çalışan 33 vəzifəli şəxsin adını çəkir, onların tutduğu mövqeyi və səlahiyyətlərini göstərir.[33]

---

[29]Ansari Mukhammad-Rafi, *Dastur al-muluk* (Ustav dlya gosudarey), (Predisloviye, perevod s persid-skogo, primechaniya i ukazateli A.B.Vil'danovoy: İnstitut vostokovedeniya imeni Abu Raykhana Beruni), İzdatel'stvo Fan, Tashkent 1991, c. 65.
[30]M. R. Ansari, *a.g.e.,* s. 66-67.
[31]M. R. Ansari, *a.g.e.,* s. 67.
[32]M. R. Ansari, *a.g.e.,* s. 67.
[33]Adam Oleari, Podrobnoye opisaniye puteshestviya Golshtinskogo posol'stva v Moskoviyu i Persiyu v 1633, 1636 i 1639 godakh, (Per. s nemets. P.Barsova.), İzd-vo Moskovskogo Universiteta, Moskva 1870, c. 791-797.

## 2-I Şah Abbasın İnzibati İslahatı

I Şah Abbas nəinki dövlət idarəçilik aparatını təkmilləşdirərək möhkəmləndirdi, həmçinin ölkə ərazisinin inzibati bölgüsündə də dəyişikliklər həyata keçirdi. 1593-cü ildə I Şah Abbas ilk dəfə təntənəli şəkildə Ərdəbilə gəldi. Şahı müşayiət edənlərin qarşısına çıxmağa qadir olmayan Şahverdi xan Qaracadağı tərk edib Osmanlılara sığındı. Onun yerinə yeni hakim təyin edildi.[34] Qaracadağ Ərdəbil iqamətgah olmaqla yeni yaradılan Azərbaycan bəylərbəyiliyinin tərkibində qaldı. XVI əsrin sonu – XVII əsrin əvvəllərində I Şah Abbas tərəfindən Xorasan ərazisinin Şeybanilərdən, işğal edilmiş Azərbaycan torpaqlarının Osmanlı imperiyasından geri qaytarılması yeni inzibati islahatların həyata keçirilməsini zərurətə çevirdi. Qızılbaşlar tərəfindən azad edilmiş ərazilərdə yeni bəylərbəyiliklər təşkil edildi və bəylərbəyilər təyin olundu. I Şah Abbas dövründə Səfəvi imperiyası Ərəbistan, Luristan, Gürcüstan və Kürdüstan valiliyinə və 13 bəylərbəyiliyə – 1. Qəndəhar, 2. Şirvan, 3. Herat, 4. Azərbaycan, 5. Çuxursəd, 6. Qarabağ, 7. Astrabad, 8. Kuh-Quliyə, 9. Kirman, 10. Mərvi Şahicahan, 11. Qələmrov-i Əlişəkər ölkəsi (Həmədan), 12. Məşhəd və 13. Darüssəltəney-i Qəzvinə bölünmüşdü.[35] Vilayətlər valilər tərəfindən idarə edilirdi. Onlar hər il şaha hədiyyələr gətirməli və Səfəvi dövlətinin sərhədlərini qonşu dövlətlərin hücumlarından qorumalı idilər. Bəylərbəyiliklərə mülki və hərbi hakimiyyətə malik Qızılbaş əmirləri və tanınmış qulamlar təyin olunurdular. Bəylərbəyi hərbi və mülki işlərlə məşğul olur, həmçinin bəylərbəyiliyin qoşununa başçılıq edirdi. Bəzən Azərbaycan bəylərbəyiliyinin bəylərbəyi həm də sipəhsalar rütbəsi ilə Səfəvi qoşunlarının baş komandanı təyin edilirdi.[36] Bəylərbəyi vəzifəsi irsi deyildi. Şah istənilən anda bəylərbəyini bu vəzifədən kənarlaşdıra bilərdi. I Şah Abbasın bəylərbəyilərin hakimiyyətini məhdudlaşdırmasına baxmayaraq, Qızılbaş əmirlərindən təyin edilmiş bəylərbəyilər həmin vilayətdə yaşayan tayfa üzvlərinə arxalandığı üçün onlara torpaq paylamaq hüququna malik olduğuna görə onları özündən asılı vəziyyətdə saxlayaraq lazımi hərbi qüvvəni toplaya bilirdi.[37] Bəylərbəyilərin sərəncamında yerli idarəçilik aparatı olurdu. Buraya vilayət vəzirləri və maliyyə idarəsinin rəhbəri – mustovfi daxil idi. Onlar vergilərin toplanmasına nəzarət edirdilər. Vilayət vəziri mərkəzi dövlət aparatında olan vəzirə tabe idi.

[34]İ. B. Münşi. *a.g.e., I Kitab,* s. 838-839.
[35]Bax: Mirzə Səmia, *Təzkirət əl-müluk,* (Be kuşeşe doktor Səid Məhəmməd Dəbirsiyaqi), Tehran 1368, s. 4, 5; M. R. Ansari, *a.g.e.,* s. 22-27; Zabil Bayramov, *Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi,* ADPU, Bakı 2006, s. 101.
[36]M. R. Ansari, *a.g.e.,* s. 33; Z. Bayramov, *a.g.e.,* s. 113.
[37]İl'ya P. Petrushevskiy, Ocherki po istorii feodal'nykh otnosheniy v Azerbaydzhane i Armenii v XVI -nachale XIX v. İzd-vo. Leningradskogo Gosudarstvennogo Universiteta, Leningrad 1949, c. 126.

Xassə torpaqlarının idarəçiliyi vilayətlərin idarəçiliyindən bir qədər fərqlənirdi. I Şah Abbasın hakimiyyəti dövründə xassə torpaqlarının sahəsi genişləndirildi. Gilan, Mazandaran, Fars vilayətləri, Qəzvin, Kaşan, Kirman, Yəzd, Qum, Astara və İsfahan şəhərləri xassə torpaqlarına çevrildi. Bunun nəticəsində adı çəkilən bölgələrin bütün gəlirləri şahın nəzarətinə keçmiş olurdu. [38]

Dövlət torpaqlarından fərqli olaraq xassələrin idarəçiliyi mülki xarakter daşıyırdı. Onlar şah tərəfindən təyin edilən vəzirlər tərəfindən idarə edilirdi. Vəzirlər xassə torpaqlarında kənd təsərrüfatı işlərini təşkil etməli və onlardan vergiləri müntəzəm olaraq toplayaraq, şah xəzinəsinə verməli idilər. Vəzirin sərəncamında yerli maliyyə rəisi – mustovfi olurdu. Vəzir, həmçinin şahın razılığı ilə mübaşiri (təsərrüfat işlərinə baxan adam), təhvildarı (xəzinədarı) və digər məmurları təyin edirdi. Şah vəzirlərin işinə nəzarət etmək üçün onların yanında fəaliyyət göstərən xüsusi məmur – vəqainəvis (mirzə) təyin edirdi. Onlar dövlət idarəçiliyində iştirak etmirdi, sadəcə olaraq vəzirlərin fəaliyyətinə nəzarət edir və bu haqda saraya məlumat verirdilər.[39]

Beləliklə, Qızılbaşların nəzarəti altında qalan Azərbaycan vilayətləri – Zəncan, Xalxal, Ərdəbil, Qaracadağ, Talış, Qızılağac, Lənkəran, Qızılüzən və Kür çayları arasında yerləşən geniş ərazi vahid 1592-cü ildən etibarən Azərbaycan vilayətində birləşdi. Bu vilayətə Zülfüqar xan və Fərhad xan qardaşları növbə ilə başçılıq etdilər. Vilayətin qoşununun sayı 10 minə çatırdı (süvari və piyada) və "Azərbaycan qoşunu" adlanırdı.[40]

### 3-I Şah Abbasın Daxili Siyasətdə Həyata Keçirdiyi Tədbirlər

I Şah Abbasın daxili siyasətində vergi sahəsində həyata keçirdiyi tədbirlər xüsusi yer tutur. Bu tədbirlərin keçirilməsində əsas məqsəd maliyyə sistemində mövcud olan məmur özbaşınalığına son qoymaq, vergidən yayınma hallarına yol verməmək, həbi əməliyyatların getməsi, təbii fəlakətlər və aclıqla bağlı olaraq iqtisadi vəziyyəti ağırlaş vilayətlərə, mahallara və şəhərlərə köməklik göstərmək, dövlətə sədaqətli olan ərazilərin əhalisini mükafatlandırmaq və ən nəhayət, dövlətin xəzinəsinə gəlirlərin mütəmadi axınını təmin etmək idi.[41] I Şah Abbas dövründə vergilər, dövlət xəzinəsinin əsas qaynağı hesab edilirdi. Buna görə də, I Şah Abbas, vergi toplama işini sistematik hala gətirməyə çalışmış və beləcə bütün vergilər mərkəzi idarənin

---

[38]Kamal Babayev, «Khasse (lichnyye zemel'nyye vladeniya) Shakha Abbasa I (1587-1629)», Vestnik Moskovskogo Universiteta, seriya XIV, Vostokovedeniye, 1973, №2, c. 19; Hans R. Roemer, "The Safevid Period", *The Cambridge History of Iran,* Vol 6, Cambridge University Press, Cambridge 1986, p. 269; C. Aydoğmuşoğlu, a.g.m., s. 88; P. Abdullayev, *a.g.e.,* s. 61.
[39]P. Abdullayev, *a.g.e.,* s. 61.
[40]İ. B. Münşi, *Tarix-i aləmara-yi Abbasi*, s. 921.
[41]Kamal Babayev, Vnutrennaya politika Sefevidskogo İrana v kontse XVI – nachale XVII vekov: Avtoref. dis. kand. ist. Nauk, Moskva 1971, s. 17; H. Abdullayev, *a.g.e.,* s. 74.

təyin etdiyi şəkildə və miqdarda toplanmağa başlanmışdı. I Şah Abbasın dövründə toplanan bəzi divan vergi növlərinin adları bunlardır: Ələfə, ulufə, konalqa, ulam, ulaf, bigar, şikar, tərh, dəstəndaz, pişkəş, səlami, eydi, novruzi, dəh-yek, çobanbəyi, du-oşr, xidmətanə, sər-öşomar, xana-şomar.[42]

Vergi sistemini nizama salınması istiqamətində I Şah Abbasın gördüyü ilk tədbirlərdən biri 1590-cı ildə Hatəm bəy Ordubadinin maliyyə idarəsinin rəhbəri (mustovfi əl-məmalik) təyin etməsidir. Hatəm bəy dövlətin maliyyə sistemini kökündən yoxlamalı və çatışmazlıqları üzə çıxarmalı idi. Bu məqsədlə də 1590-1591-ci illərdə dövlətin mədaxili və məxariclərinə dair cədvəllər hazırlandı. Hatəm bəyin hazırlamış olduğu maliyyə cədvəlləri 1597-ci ildə qardaşı Ağa Şahəli Dövlətabadi İsfahaninin vəfat etməsi ilə mustovfi əl-məmalik vəzifəsinə təyin olunan Ağa Mirzə Əli tərəfindən həmin cədvəllərin tərtibi başa çatdırıldı. “Dəstür-ül əməl” adlanan bu cədvəllər maliyyə sahəsində saray dəftərxanası üçün əsas qanun və qayda rolunu oynayırdı.[43]

I Şah Abbas əhalinin vəziyyətini yaxşılaşdırmaq üçün vergi yükünü imkan daxilində azaltmağa çalışdı. İsgəndər bəy Münşi yazır: “Rəiyyətin rifahının yüksəldilməsi məsələsi onun nurlu ürəyində qərar tutubdur... O, rəiyyətə divan vergilərindən külli miqdarda yüngülləşdirmələr bəxş etdi. Əvvəla, İraqi-Əcəmin on beş min İraq tüməninə yaxın olan sər-kəllə vergisi o vilayətin əhalisinə bağışlanıldı... Bundan başqa, ramazan ayında məmləkətin bütün şiə əhalisini divan mükəlləfiyyətlərdən azad etdi... divan işçilərinin əməlləri ucbatından iyirmi min tümənə yaxınlaşan ehdas və mali-yekmahə (vergilərini) rəiyyətə sədəqə etdi”.[44]

I Şah Abbasın vergi siyasətinin yuxarıda qeyd etdiyimiz kimi, mühüm istiqamətlərindən biri də Şeybanilərə və Osmanlılara qarşı hərbi əməliyyatların gedişində dağıntılara və qarətlərə məruz qalmış vilayətlərin əhalisinə edilən güzəştlər təşkil edirdi. I Şah Abbasın belə bir qərar verməsinə səbəb Xorasan Şeybanilər tərəfindən işğal olunan zaman mərkəzi vilayətlərin əhalisinin işğal illərində Xorasandan qaçqın düşmüş əhaliyə köməklik göstərməsi, onları ərzaqla, yaşamaq üçün yerlə təmin etməsi idi. 1598-ci ildə Şeybanilər üzərinə yürüş zamanı və qələbə qazanılaraq Xorasan geri aldıqdan sonra I Şah Abbas mərkəzi əyalətlərdə, xüsusilə Əcəm İraqında əhali üzərinə qoyulmuş vergiləri azaltmaq, bəzilərini ləğv etmək qərarına gəldi. Əhali 100 min İraq tüməni məbləğində vergi yükündən azad edildi. Hərbi əməliyyatlar zamanı əhalinin orduya göstərdiyi yardımlar nəzərə alınaraq hər il onlardan 20 min İraq tüməni

[42]T. Musəvi, *Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI-XVIII əsrlər),* Elm, Bakı 1977, s. 79, 155.
[43]İ. B. Münşi, *a.g.e., II Kitab,* s.1929-1930; H. Abdullayev, *a.g.e.,* s. 75-76.
[44]İ. B. Münşi. *Tarix-i aləmara-yi Abbasi,* s. 708-709.

həcmində alınan çobanbəyi vergisi ləğv edildi. Ləğv edilən digər vergilərdən biri də tiyuldarlar və darğalar üçün hər il rəiyyətdən yığılan "beşdə bir dinar" vergisi idi. Bu vergi xəzinəyə ildə 50-60 min tümən həcmində gəlir gətirirdi. Eyni zamanda, Səfəvi dövlətinin yeni paytaxtı İsfahan şəhərinin əhalisi də bir illik mal vergisi (yeksale) ləğv edildi. Səfəvi şahı tərəfindən əhalinin vergidən azad edilməsi şah tərəfindən onlara verilən mükafat kimi qiymətləndirilirdi.[45]

Səfəvi-Osmanlı müharibəsinin gedişində Azərbaycanın ayrı-ayrı şəhərlərinin əhalisinin hərbi əməliyyatların gedişində göstərdiyi yardımlar nəzərə alınaraq həmin şəhərlərin əhalisi də vergilərdən azad edildi. 1606-cı ildə I Şah Abbasın fərmanı ilə Ordubad əhalisi şəhər Osmanlılardan azad edilən zaman göstərdiyi xidmətlər nəzərə alınaraq bütün vergilərdən azad edildi. İsgəndər bəy Münşi yazır: "... Ordubad şahanə inayətə layiq görüldü, bütün divan vergilərindən azad olundu, Azərbaycan vilayətində ona bənzər başqa bir yerə bu imtiyazlar verilmədi".[46] 1607-ci ilin fevral-mart aylarında Dərbənd və Bakı şəhərləri Osmanlı işğalından azad edilməsi zamanı həmin şəhərlərin əhalisi də müəyyən vergi və mükəlləfiyyətlərdən azad edilmişdi. Usmi xan Qaytaq I Şah Abbasa sədaqətini bildirdiyi üçün şah Dərbənd ülkasını ona vermişdi. Dərbənd əhalisi Osmanlıların itaətindən boyun qaçırıb, Səfəvilərə tabe olmaq yoluna düşdükləri vaxt onlar Usmi xanın yanına adam yollayıb onu Dərbəndə çağırdılar. Usmi xan 2-3 yüz nəfər qaytaq döyüşçüsü ilə Dərbəndə gələn zaman şəhər əhalisi onun şəhərə daxil olmasına yardım etdilər. İsgəndər bəy Münşi yazır: "Xacə Məhəmməd Dərbəndinin oğlu bir dəstə dərbəndli və Usmi xanın bir neçə mülazimi ilə şahın dərgahına gələrək, onunla görüşmək səadətinə yetdilər. Əlahəzrət şah bu yaxşı hərəkət müqabilində onları qiymətli xələtlər və daş-qaşla bəzənmiş hərb alətləri ilə başıuca etdi, onlara aid olan mülklərin vergilərini soyurqal sifəti ilə onlara bağışladı, şəhər camaatını divan vergilərindən azad edərək, onların adını vergi dəftərlərindən çıxardı".[47]

Səfəvi şahının vergi siyasətində İsfahanla bağlı həyata keçirilən tədbirlər xüsusi yer tutur. 1613-cü ilin martında bütün vilayətin torpaq sahibləri və kəndliləri üç illik vergiləri və əldə olunan məhsuldan alınan 15 min tümən həcmində olan onda bir vergisi dayandırıldı. İsfahan əhalisinə vergi güzəştlərinin verilməsi bir tərəfdən isfahanlıların Xorasan əhalisinə kömək etmələri, digər tərəfdən I Şah Abbas 1613-cü il martın 24-də Fərəhabaddan İsfahana gələn zaman yerli əhali tərəfindən yüksək səviyyədə qarşılanması ilə bağlı idi.[48]

---

[45] İ. B. Münşi, *a.g.e., II Kitab,* s. 1703-1704; H. Abdullayev, *a.g.e.,* s. 76.
[46] İ. B. Münşi, *a.g.e., II Kitab,* s. 1302-1303.
[47] İ. B. Münşi, *a.g.e., II Kitab,* s. 1323.
[48] İ. B. Münşi, *a.g.e., II Kitab,* s. 1541-1542; H. Abdullayev, *a.g.e.,* s. 78.

I Şah Abbasın vergi sisteminin nizama salınması sahəsində həyata keçirdiyi tədbirlər, bir sıra vergilərin ləğv edilməsi və ya azaldılması, ayrı-ayrı vilayətlərin, şəhərlərin və hətta şəxslərin vergi imtiyazları alması haqqında verilmiş fərmanlar Səfəvi dövlətinin iqtisadiyyatının böhrandan çıxmasına və əhalinin vəziyyətinin yaxşılaşmasına səbəb oldu. Həmçinin, ordu quruculuğu sahəsində müvafiq islahatların həyata keçirilməsində mühüm əhəmiyyət kəsb etdi.

**4-I Şah Abbasın Hərbi İslahatları**

I Şah Abbasın həyata keçirdiyi islahatlar içərisində ordu quruculuğu sahəsində islahatlar xüsusi yer tutur. Səfəvi şahı ordu quruculuğuna hələ 1592-ci ildə başlamışdı. Xorasana uğursuz yürüşdən sonra Qəzvinə dönən I Şah Abbas etimadüddövlə Hatəm bəy Ordubadiyə, qorçu-başıya və digər tanınmış əyanlara göstəriş vermişdi ki, paytaxt Qəzvində qoşunun qayğısına qalsınlar, onların ulufə, mərsumət və başqa ehtiyaclarını ödəsinlər. Qərara alındı ki, Qızılbaş tayfaları, döyüşçülərin el və oymaqlarının təhqiqi ilə məşğul olsunlar, məvacib alan hər bir mülazim və başqa adam müəyyənləşsin ki, onlar süvarilik və yasaq işlərinə cəlb edilə bilsinlər, Xorasan yasağında xəyanət edib gəlməyənlərsə cəzalandırılsınlar, bu dəfə onları tənbeh etmək məqsədilə cəriməyə məruz qoysunlar.[49] “Fərmanı alanlar bu ali əmri dərhal yerinə yetirdilər. Həqiqətən də bu qərar ona səbəb oldu ki, yasaq əmri alınan kimi bütün Qızılbaş tayfaları və el-oymaq əhalisi padşahın cəzasının qorxusundan həm piyadalar, həm də süvarilər çağırış hökmü olmadan yola düşərək səy etdilər ki, müzəffər orduya çağırış zamanı bir-birindən geri qalmasınlar”.[50] Hərbi islahatların həyata keçirilməsində Səfəvi sarayının tanınmış dövlət xadimləri etimadüddövlə Hatəm bəy Ordubadi, Fərhad xan Qaramanlı, qullarağası Allahverdi xan və qorçibaşi Allahqulu bəy Qacar mühüm rol oynadı.[51] XVI əsrin 90-cı illərinin əvvəl-lərində ordunun yenidən qurulması məqsədi ilə başladılan hərbi islahat 1598-ci ildə I Şah Abbasın Xorasana hərbi səfəri ərəfəsində demək olar ki, başa çatdırıldı.

Hərbi islahatların gedişində I Şah Abbas ilk növbədə Qızılbaş tayfa qoşunlarının yeni-dən təşkilinə başladı. Qızılbaş qoşununun tayfa müxtəlifliyi əsasında qurulmasına başlanıldı. Dövlətin əsas hərbi qüvvəsini təşkil edən Qızılbaş silahlı dəstələri əvvəlki qüdrətini itirdiyinə görə mərkəzləşdirilmiş dövlətin möhkəmləndirilməsi yolunda əngələ çevrildi. Hərbi çağırış zamanı müxtəlif bəhanələrlə bir çox Qızılbaş hərbi dəstələrinin şah qərargahına gəlməkdən

[49]İ. B. Münşi, *a.g.e., I Kitab,* s. 850.
[50]İ. B. Münşi, *a.g.e., I Kitab,* s. 850.
[51]Bax: İ. B. Münşi, *a.g.e., I Kitab,* s. 824, 863, 850, 863; Kamal Babayev, «Voyennaya reforma shakha Abbasa I». //*Vestnik Moskovskogo Universiteta,* Ceriya İstoriya, 1973, №1, s. 24

imtina etməsi I Abbasın sərt tədbirlər görməsinə səbəb oldu. Şah belə bir göstəriş verdi ki, bundan sonra bütün hərbiçilər ölkənin müdafiəsinə və dövlətin müstəqilliyinin qorunmasına hazır olmalıdır. Bu işdə lənglik göstərən ölüm cəzasına məhkum edilməli, əmlakı isə müsadirə olunmalı idi.[52] Bu tədbirin təsiri o qədər güclü oldu ki, bütün Qızılbaş tayfaları, hətta rəsmi çağırış gözləmədən dərhal süvari və piyada qüvvələrində xidmət etmək üçün toplantı yerinə gəlirdilər.[53] Pyetro della Valleyə görə, Qızılbaş süvari qoşunu 70 min nəfər olmuş, onlardan 50 min nəfəri hərbi xidmətdə olduqları üçün dövlətdən məvacib alırdılar. Onlardan 20 min nəfəri ticarət və əkinçiliklə məşğul olurdu və dövlət onlara məvacib vermirdi.[54]

Səfəvi dövlətinin yeni yaradılmış nizami qoşununun tərkibinə Qızılbaş tayfa süvarilərindən yığılan qorçi adlı nizami qvardiya daxil idi. Qorçular əslində yeni kiçik bir qoşunun əsasını təşkil etdilər. Qızılbaş ordusunda qorçular ilk dəfə 1500-cü ildə Bakının mühasirəsi zamanı dövrün qaynaqlarında xatırladılmışdı. Şah İsmayıl dövründə qorçular şahın yanında vuruşur, şahın əmri ilə hərbi səfərlərdə iştirak edir, sarayı qoruyur, əyalətlərlə bağlı verilən qərarları vilayətlərə apararaq yerinə yetirirdilər.[55] Bununla da Səfəvi ordusunda yeni bir qoşun növünün əsası qoyuldu. Digər tərəfdən bu, Səfəvilər dövlətində nizami ordunun əsasının qoyulmasında ilk addım idi. Hələ I Şah Təhmasibin ölümü ərəfəsində şahın xidmətində olan 6 min mülazimdən 3 minini qorçular təşkil etmişdi.[56] I Şah Abbas I Şah Təhmasibin başladığı işləri təkmilləşdirdi və qorçu dəstələrini yenidən təşkil etdi. Sayı 12 minə çatan qorçu dəstəsi indi öz tayfa başçısı ilə yanaşı, baş komandana tabe edilmişdi və qorçular dövlət xəzinəsindən ildə bir dəfə məvacib alırdılar.[57] İsgəndər bəy Münşi yazır ki, "uca məhəbbət rütbəsinə layiq görülmüş və yüzbaşılıq mərtəbəsindən yüksək valilik dərəcəsinə çatmış İsa xan ibn Seyid bəy ibn Məsum bəy Səfəvi uca qədir-qiymətli qorçubaşılıq mənsəbinə təyin edildi".[58] Pyetro della Valle yazır ki, qorçular Qızılbaş olub, xan və sultana deyil, birbaşa şaha tabedirlər.[59] J. Şarden şəxsi müşahidələrinə əsaslanaraq yazır: "Qorçular bir neçə dəfə zərbə yemələrinə baxmayaraq,

[52]İ. B. Münşi, *Tarix-i aləmara-yi Abbasi,* s. 710.
[53]İ. B. Münşi, *Tarix-i aləmara-yi Abbasi,* s. 710.
[54]Pyetro della Valle, *Səfərname-ye Pyetro della Valle,* (Tərcome-ye əz mətne əsli-ye italiyayi doktor Şücaəddin Şəfa), Tehran 1348, s. 348; Z. Bayramov, *a.g.e.*, s. 73.
[55]Masashi Haneda, "The Evolation of The Safavid Royal Guard", (Trans: Rudi Matthee), *Iranian Studies,* 22:2, 1989, p. 68; Eralp Erdoğa, "Safevi Ordusunda Bir Birlik-Kurçiler", *Ankara Üniversitesi Dil ve Tarih-Coğrafya Fakültesi Dergisi*, 55, 2 (2015), s. 77.
[56]İ. B. Münşi, a*.g.e., I Kitab,* s. 270.
[57]Masashi Haneda, "Safevi Hassa birliklerinin tekamülü", (Çev. İlker Külbilge), *Cihannüma Tarih ve Coğrafya Araştırmaları Dergisi*, S. II/1-July 2016, s. 129; Z. Bayramov, *a.g.e.*, s. 74.
[58]İ. B. Münşi, a*.g.e., II Kitab,* s. 1538; M. Haneda, *a.g.m.*, s. 129.
[59]P. della Valle, *a.g.e.*, s. 351; M. Haneda, *a.g.m.*, s. 129; Z. Bayramov, *a.g.e.,* s. 74.

bu gün nizami qoşunun ən güclü heybətli hissəsidir. Onlar türkman... soyundandırlar... öz kəndlərində yaşayır, başqa qəbilə və tayfaya qarışmamışlar”.[60]

Yuxarıda qeyd etdiyimiz kimi, qorçular Səfəvi ordusunda xüsusi bir dəstə təşkil etmiş, onlar ən azı I Şah Abbasdan əvvəl xüsusi mühafizə alayı kimi xidmət etmişdilər. Qorçi alayı əsasən Qızılbaş tayfalarından təşkil olunurdu. M. Haneda dövrün farsdilli qaynaqları ilə Avropa diplomatlarının və səyyahların gündəliklərini müqayisəli təhlil edərək belə qənaətə gəlir ki, I Şah Abbasın hərbi islahatlarından sonra yaradılmış qorçi alayı xeyli fərqlənirdi. Bu dövrdə qorçi termini Qızılbaş termininden açıq şəkildə fərqlənir, baxmayaraq ki, Qızılbaş termini farsdilli mənbələrdə bütün türkman tayfalarını ifadə etmək üçün istifadə olunur. Lakin XVII əsrə aid farsdilli qaynaqlarda qorçular ardıcıl olaraq Qızılbaş əmirlərinin rəhbərlik etdiyi birliklərdən tamamilə fərqli və müstəqil hərbi qüvvə kimi təsvir edilsə də, əsərlərini eyni dövrdə yazmış avropalıların demək olar ki, hamısı qorçi ilə Qızılbaşları eyni hesab edirlər.[61]

I Şah Abbasın dövründə Qızılbaş tayfalarının nüfuzları sarsılsa da, Səfəvi ordusunda öz mövqelərini qoruyub saxladılar. Bununla belə, yeni yaradılan qorçi dəstələri və onların qorçubaşı adlanan rəislərinin nüfuzunun artması I Şah Abbasa hərbi islahatları həyata keçirmək üçün bilavasitə qorçulara arxalanmağa imkan yaratdı. Vilayətlərdə baş verən qiyamların yatırılmasında Qum hakimi qılınc qorçusu Hüseyn xan Şamlı, yay qorçusu Həsən xan Çavuşlu və Əmirgünə xan Qacar kimi qorçular mühüm rol oyadılar.[62] İsgəndər bəy Münşinin verdiyi məlumatdan aydın olur ki, bəzən I Şah Abbasın göstərişi ilə bəylərbəyilərin vilayət qoşununun müəyyən hissəsi qorçular dəstəsinin tərkibinə qatılırdı. Belə ki, 1610-cu ildə Şirvan bəylərbəyi Zülfüqar xan Qaramanlı qürurunun artması və təkəbbürlüyü üzündən Səfəvi şahının qəzəbinə düçar olduğuna görə Qərçiqay bəy tərəfindən öldürülmüş, Zülfüqar xanın qaramanlı oymağından olan mülazimlərinin bəzisi əzəmətli qorçular silkinə daxil edildi, qalan qoşunu isə Şirvan bəylərbəyiliyi təyin olunan sabiq Astrabad hakimi Yusif xan Şikarbaşının mülazimi oldu.[63] Qeyd etmək lazımdır ki, bir qayda olaraq Qızılbaş əmirləri nüfuzdan düşən zaman, onun adamları onu əvəz edən əmirin xidmətinə verilirdi. Demək olar ki, Zülfüqar xanın bəzi adamlarının qorçulara daxil olması, yəqin ki, I Şah Abbasın qorçi birliklərinin sayını artırmaq istəməsi ilə bağlı idi.

---

[60]Jan Şarden, *Səfərname-ye Şarden,* (Tərcoma-ye Eğbal Yəğmai), C. 3. Tehran 1374, s. 1191; Z. Bayramov, *a.g.e.,* s. 75.
[61]M. Haneda, *a.g.m.,* s. 133.
[62]Bax: İ. B. Münşi, a.*g.e., I Kitab,* s. 827-831; İ. B. Münşi, a.*g.e., II Kitab,* s. 1162; M. Haneda, a.g.m., s. 140.
[63]İ. B. Münşi, a.*g.e., II Kitab,* s. 1448; M. Haneda, a.g.m., s. 142.

Səfəvi şahının sarayda fəaliyyət göstərən qorçuları "Yaraq qorçuları" adlanırdı və iki qrupa bolunürdü. Birinci qrup "Mukarrəbül-həzrət" adını daşıyırdı. Bəzi Qızılbaş uşaqları kiçik yaşdan şahın nəzarəti altında saraya gətirilərək öyrədilir və sarayda müxtəlif vəzifələrə təyin edilirdilər.[64] Bu vəzifələrdən biri də sonralar qorçu adlandırılacaq bu şəxslərə döyüş silahlarının verilməsi idi. Mukarrəbül-həzrət adını alan bu qorçulara məclis toplantılarında və səfərlərdə hazır olmaları tələb olunurdu.[65] Bu qrupdakı qorçuların adları və məclisdəki sırası belə idi: 1. Qılınc qorçusu, 2. Sadak qorçusu, 3. Ox və kaman qorçusu, 4. Şeşpər qorçusu, 5. Xəncər qorçusu, 6. Zireh qorçusu, 7. Qalxan qorçusu, 8. Tüfəng qorçusu, 9. Mizraq qorçusu, 10. Nacaq (təbərzin) qorçusu.[66] J. B. Tavarniye qılınc qorçusunun şahın qılıncını daşıdığını,[67] Cemelli Kareri ox qorçusunun şahın ox və yayını daşıdığını qeyd edir.[68] Sarayda "Mukarrəbül-həzrət" adını daşımayan ayaqqabı qorçusu, nizə qorçusu, çətir qorçusu, çovqan qorçusu, qəlyan qorçusu, sandal qorçusu fəaliyyət göstərirdi.[69] Adından göründüyü kimi birinci qrup qorçuların şahın silahlarını, ikinci qrupda olanlar isə onun şəxsi əşyalarını daşımışlar. Səfəvi sarayında bu qorçulardan savayı "Mukarrəbül-xaqan" adını daşıyan digər qorçu qrupu da var idi. Onlar "üzəngi qorçusu" kimi tanınırdılar. Şah səfərə çıxarkən, ata minərkən onlar hazır olmalı idilər. Şahın mindiyi at hazır olan zaman o, bir əli ilə şahın üzəngisini tutar, digər əli ilə onun minməsinə yardım edərdi. Saray məclislərində muhtəsəbül-məmalikin arxasında oturardı.[70]

Səfəvi sarayında fəaliyyət göstərən qorçulardan savayı vilayətlərdə də xidmət göstərən qorçular vardı. Onlar Qəzvin, Naxçıvan, Məşhəd, Tehran, Dərbənd qorçusu kimi adlar daşıyırdılar ki, bu da onların fəaliyyət göstərdikləri şəhər və vilayətlərin adları ilə bağlı idi.[71] Qorçular digər döyüşçülərdən fərqlənmək üçün bir qayda olaraq uzun bığ saxlayırdılar. Döyüşə gedən zaman incə ipək paltar və zireh geyinər, ox, yay, xəncər, qılınc, mizraq və təbərzin silahlar daşıyırdılar.[72]

İlkin qaynaqlarda qorçubaşı vəzifəsini ilk dəfə Abdal Dədə bəyin tutduğu, sonralar Ustaclı, Təkəli və Şamlı Qızılbaş tayfalarından olan əmirlərin qorçubaşı vəzifəsini tutduğu öz əksini tapmışdır. 1534-cü ildə Sevindik bəy Əfşarın qorçubaşı seçilməsi ilə Əfşar tayfasından

[64] Roger Savory, "The Qizilbash, Education and Arts", *Studies on the history of Safavid Iran*, Variorum Reprints, London 1983, p. 173.
[65] Mirzə Rəfia, *Düstürül-Müluk*, (Be kuşeşe Məhəmməd İsmail Marçinkovski, Tercumeyi farsi Əli Qurdabadi), Mərkəz-i Esnad və Tarix-i Diplomasi. Tehran 1385, s. 256; E. Erdoğan, *a.g.e.,* s. 83.
[66] V. Minorsky, *a.g.e.,* s. 117; M. Rəfia, *a.g.e.,* s. 257; M. R. Ansari, *a.g.e.,* s. 90; E. Erdoğan, *a.g.e.,* s. 83-84.
[67] Jan Batist Tavarnier, *Sefername-i Tavernier*, (Tercumeyi farsi Həmid Ərbab Şirani), Tehran 1382, s. 247.
[68] Cemelli Kareri, *Səfərnamə (*fars dilindən tərcümə Şəmsi Pənahoğlu), Avropa, Bakı 2019, s. 147.
[69] M. Rəfia, *a.g.e.,* s. 257-258; M. R. Ansari, *a.g.e.,* s. 90; E. Erdoğan., a.g.m., s. 81; E. Erdoğan, *a.g.e.,* s. 84.
[70] M. Rəfia, *a.g.e.,* s. 230; M. R. Ansari, *a.g.e.,* s. 68; E. Erdoğan, *a.g.e.,* s. 85.
[71] Willem Floor, *Safavid Government Institutions,* Mazda Publishers, California 2001, p. 148.
[72] Oqtay Əfəndiyev, *Azərbaycan Səfəvi dövləti*, Şərq-Qərb, Bakı 2007, s. 249; W. Floor, *a.g.e.,* s. 155-156.

olan əmirlər də bu vəzifəni tutmuş və uzun müddət, 1589-cu ildə Vəli xan Əfşarın ölümünə kimi qorçubaşı vəzifəsi əfşarların ixtiyarında qalmışdır.[73] Qorçubaşılar "möhtəşəm dövlətin sütunları olan əmirlərin ən önəmlisidirlər".[74] 1608-ci ildə İsfahanda olan karmelit Pol Simon şahın "dörd müşaviri" olduğunu qeyd edir. Bunlar "Komandanı Allahverdi xan, vəzir Atabəy, qorçubaşı və həm valisi, həm də lələsi olan başqa bir şəxsdir. Birincidən başqa digərləri həmişə şahın yanındadır və şah onlardan kimisə qəbul edəndə onun yanında dayanırlar".[75] Qorçubaşı vəzifəsinin əhəmiyyətinin artması ilə paralel olaraq qorçular digər mühüm vəzifələrə təyin edilməyə başladılar. Qorçubaşı savaş meydanında şahın sağ tərəfində durardı. Onun bayrağı yaşıl rəngdə idi. Məclisdə sol tərəfdə sədr-i məmalikin arxasında oturardı.[76]

M.Haneda I Şah Abbas dövründən etibarən bəzi qorçubaşılara xan titulunun verilməsinə diqqət çəkərək bu vəziyyətin qorçubaşının statusunun yüksəldiyi mənasını verdiyini qeyd edir.[77] Şübhəsiz o, bu təsbitində haqlıdır, çünki Qızılbaşların güclü olduğu dövrlərdə əyalətlərə xan ləqəbi ilə Qızılbaş bəyləri hökm edərdi. Xan ləqəbinin Qızılbaşlardan savayı digərlərinə verilməsi statusun dəyişməsinin göstəricisidir. Qorçubaşıların dövlətdə gücü və səlahiyyəti o qədər artmışdı ki, etimadüd-dövlə ləqəbli baş vəzirdən sonra ən səlahiyyətli şəxs halına gəlmişdi.[78] E. Kempferə görə, qorçubaşı ölkənin ən rütbəli süvari komandiridir.[79]

Qorçuların qorçubaşına tabe olan vəziri[*] və mustovfisi[**] var idi. Qorçulara aid olan sənədlərə bir qayda olaraq mustovfi öz münasibətini bildirər, onun həmin yazısının üzərinə qorçi vəziri öz möhürünü vurardı. Bir qayda olaraq qorçularin vəziri qorçubaşının və baş vəzirin tələb etdiyi sənədi öncə mustovfiyə göstərdikdən sonra möhürləyərdi.[80] Qorçular, yüzbaşılar, yaraq qorçulari və yeni qorçularin qulluq vərəqəsi, vəsiqələri qorçu vəzirləri yanında saxlayırdı. Vəzirlər qorçularin qulluq vəsiqələri, əlavə tiyul və maaş hökmlərini və onların ünvanını da yazardı. Həm də hökmlər və fərmanlar sırasında məvacib, tiyul, həmasalə, ənam və onlara aid sənədləri möhürləyirdilər. Vəzir bu idarənin mustovfisi ilə bərabər şahın hüzurunda qorçularin

---

[73] İ. B. Münşi, a*.g.e.*, *I Kitab*, s. 765; E. Erdoğan, *a.g.e.*, s. 118-119.
[74] V. Minorsky, *a.g.e.*, s. 46.
[75] *A Chronicle of Carmelites in Persia: The Safavids and the Papal Mission on the 17 and the 18 centuries*, (Ed. H. Chick, İntroduction Rudi Matthee), C in 2 volumes,Vol.1, London 2012, p. 159.
[76] M. Rəfia, *a.g.e.*, s. 191, 192; E. Erdoğan, *a.g.e.*, s. 122.
[77] M. Haneda, *a.g.e.*, s. 78.
[78] M. Rəfia, *a.g.e.*, s. 189; E. Erdoğan, *a.g.e.*, s. 122.
[79] Engelbert Kempfer, *Sefername-i Kempfer*, (Tercumeyi farsi Keykavus Cahandari), Tehran 1363, s. 87.
[*] Qorçu vəziri ilk dəfə 1511-ci ildə fəaliyyət göstərməyə başlamışdı (bax: M. Haneda, *a.g.m.*, s. 135, qeyd 49).

[**] Qorçu mustovfisi ilk dəfə 1542-ci ildə fəaliyyət göstərməyə başlamışdı (bax: M. Haneda, *a.g.m.*, s. 135, qeyd 49).
[80] M. Rəfia, *a.g.e.*, s. 235; M. R. Ansari, *a.g.e.*, s. 72.

sayını, san vəsiqələrini, tiyul, məvacib, həmasaləsinin miqdarını ərz edərdi.[81] Qorçularin vəzirinin illik təxminən min tümən gəliri olurdu. Məclisdə sağ tərəfdə münşi əl-məmalikin arxasında oturardı. Qorçulara maaş verilməyə başladıqdan sonra maliyyə məmuruna ehtiyac yarandığına görə qorçuların mustovfisi təyin olunmağa başladı. Onun ixtiyarında divanın 4 mirzəsi çalışırdı. Mustovfi 50 tümən maaş alırdı və məclisdə sağ tərəfdə topxana vəzirinin arxasında otururdu.[82]

I Şah Abbasın hərbi islahatlarında şah qvardiyası vəzifəsini yerinə yetirməli olan qulamlar korpusunun yaradılması əsas yer tuturdu. İsgəndər bəy Münşi bu barədə yazır: "... ixtilaf əyyamında tayfaların özbaşınalıq nümayiş etdirən şəxslərindən çoxlu yöndəmsizliklər baş qaldırmış və onların müqəddəs nişanəli Səfəvi sülaləsinə münasibətdə əqidələri pozulmuşdu. Bu cür şəraitdə dünya fatehi [Şah Abbasın] düşüncəsi belə qərara gəldi ki, dövlət işlərini nizama salmaq məqsədi ilə... bu [Qızılbaş tayfaları] təbəqəsindən savayı, digər bir dəstəni də hərbçilər silkinə daxil etsin. Bu səbəbdən gürcü, çərkəz və s. bu kimi qulamlardan ibarət çoxsaylı bir dəstəni hərbçilər silkinə daxil edib, bu [Səfəvi] dövlətində adət olmayan yeni bir vəzifəni – qullarağası mənsəbini təsis etdi".[83] Beləliklə, Şah xəzinəsindən maaş alan "qullar" ("qulamani-xasseyi-şərifə") təşkil edildi. Qullar öz valideynləri, nəsli və dini ilə əlaqəsini itirmiş, erkən yaşlarından Səfəvi sarayında tərbiyə almış, hərb sənətinə mükəmməl yiyələnmiş gürcü, xristian və çərkəz mənsəbli süvari gənclər olmuşlar. Qullar dəstəsinin başçısı qullarağası idi. Bütün varlığı ilə şaha bağlı və ondan asılı olan bu gənclərin sayı 12 minə çatırdı. Onlara Azərbaycan türk dili öyrədilirdi. I Şah Abbas qulamlarla türk dilində danışırdı. Qullarağasının rəhbərlik etdiyi qulamlar korpusu şahın, sarayın, mühüm dövlət obyektlərinin mühafizəsini həyata keçirirdi. I Şah Abbasın bu seçmə alaya o qədər hüsn-rəğbəti vardı ki, onları özünün "süvari yeniçəriləri" adlandırırdı.[84] I Şah Abbas qulları toplayıb tərbiyə etmək üçün bir təşkilat da yaratmışdı. Bu, Osmanlı Yeniçəri Ocağının daha kiçik bir nümunəsi idi. Bu ocağın rəisinə qullarağası deyilirdi.[85] I Şah Abbas taxta çıxdıqdan sonra yaratmış olduğu qulamlar dəstəsinin rəhbərləri sonralar ayrı-ayrı vilayətin hakimləri oldular. Qızılbaş tayfa başçıları arasındakı çəkişmələr mərkəzi hakimiyyəti zəiflətdiyinə görə I Şah Abbas qərara aldı ki, böyük əmirləri müxtəlif tayfalardan seçsin və onların öz tayfaları ilə əlaqələrini kəssin. Şah başqa dinə və

---

[81] M. Rəfia, *a.g.e.,* s. 235; M. R. Ansari, *a.g.e.,* s. 72; M. Səmia, *a.g.e.,* s. 36-37; Z. Bayramov, *a.g.e.,* s. 99.
[82] M. Rəfia, *a.g.e.,* s. 241; M. R. Ansari, *a.g.e.,* s. 72-73; E. Erdoğan, *a.g.e.,* s. 130.
[83] İ. B. Münşi, *Tarix-i aləmara-yi Abbasi,* s. 711.
[84] V. Minorsky, *a.g.e.,* s. 33.
[85] Faruk Sümer, "Safevi Tarihi İle İlgili İncelemeler: I. ve II. Abbas Devirleri", *Türk Dünyası Araştırmaları,* S. 69, Aralık 1990. İstanbul 1990, s. 15; Faruk Sümer, *Safevi Devletinin Kuruluşu Ve Gelişmesinde Anadolu Türklerinin Rolu,* TTK Basımevi, Ankara 1999, s. 148.

etiqada sahib olan adamları himayəsi altına aldı.[86] Qulamlar arasında şəxsi xidmətinə, sərkərdəlik qabiliyyətinə görə fərqlənənləri Səfəvi şahı ən yüksək vəzifələrə təyin etdi. Məsələn, qullarağası, xristian mənsəbli Allahverdi xan Fars bəylərbəyi, Yusif xan Şirvan bəylərbəyi, Qarçıqay xan isə Səfəvi ordusunun baş komandanı təyin edildi.[87] I Şah Abbasın hakimiyyətinin sonlarında onun qulamlarından 21-i əmir əl-ümara, xan və sultan titulu daşımışdı.[88]

Osmanlı yeniçərilərinə bənzər yeni nizami hərbi hissələrin təşkili əslində dövlətin hərbi qüdrətinin möhkəmləndirilməsi məqsədindən irəli gəlirdi. Görünür, I Şah Abbas yalnız Qızılbaşların dövlətdəki nüfuzunu məhdudlaşdırmağa çalışmamış, o həm də qeyri-türk ünsürlərinin mərkəzdənqaçma hərəkətlərinə qarşı da kəskin mübarizə aparmışdı. Bu mübarizədə onun arxalandığı hərbi qüvvənin türklər olması bəlli həqiqətdir. Elə buna görə də, onun dövründə Qızılbaş tayfa əmirləri Azərbaycan Səfəvi dövlətinin əsas dayağı olaraq qalırdı.[89]

İsgəndər bəy Münşi yazır ki, fani dünyadan əbədi köçən bəzi Qızılbaş əmirləri və vilayət hakimlərinin əvəzinə onların mənsub olduqları həmin oymaqlardan həmin şəxsləri ali əmir səviyyəsində əvəz edə biləcək heç kəs qalmadığı üçün şahın yolunda başqalarından üstün olan və ədalət, bacarıq, şücaət, igidlik və etibarlarına görə seçilən xasseyi-şərifə qulamları el, qoşun əmirliyinə və dövlət işlərinə təyin edildilər.[90] Öz xidmətləri ilə seçilən ən məşhuru qulamlardan biri Allahverdi xan idi. I Şah Abbas tərəfində onun xidməti nəzərə alınaraq yüksək vəzifəyə təyin edilmişdi. Belə ki, 1503-cü ildən 1594-cü ilə kimi Zülqədər tayfasından olan əmirlər tərəfindən idarə olunan Fars vilayəti Qullarağası Allahverdi xana tapşırılmışdı. Və beləliklə, Səfəvi tarixində ilk dəfə bir qulam vilayət hakimi olmuşdu.[91] I Şah Abbasın sadiq qulamlarından biri də Qarçiqay xan idi. O, da digər qulamlar kimi Səfəvi dövlətində yüksək mənsəb sahibi olmuşdu. 1603-cü ilin yazında Səfəvi ordusunun Çiçəktu və Bağdisə yürüşü zamanı I Şah Abbas tərəfindən xasseyi-şərifə qulamı Qarçiqay xan topxana əmirliyinə, bütün topçulara və tüfəngçilərə sərdar təyin edilmiş,[92] bir müddət sonra isə o, Səfəvi ordusunun baş

[86]*Rossiya i Yevropa glazami Orudzh-Beka Bayata-Don Zhuana Persidskogo*, c. 132-133.
[87]Abulgasan A. Rakhmani, *Azerbaydjan kontse XVI i v XVII veke*, Elm, Baku 1981, c. 37.
[88]İ. B. Münşi, a.*g.e., II Kitab*, s. 1922-1924.
[89]Z. Bayramov, *a.g.e.*, s. 89.
[90]İ. B. Münşi, a.*g.e., II Kitab*, s. 1922-1923.
[91]İ. B. Münşi, a.*g.e., I Kitab*, s. 952; Masashi Haneda, "The Evolation of the Safavid Royal Guard", (Translated: Rudi Matthee), *Iranian Studies*, 22:2, 1989, p. 265.
[92]İ. B. Münşi, a.*g.e., II Kitab*, s. 1030.

komandanı – sipəhsaları təyin edilmişdi.[93] Pietro della Valleyə görə qulların sayı 30 minə çatsa da, onların yalnız 15 mini döyüşlərə qatılmışdı.[94] Qullarağasının bayrağı ağ rəngdə olurdu.[95]

Qullar (qulamlar) korpusuna rəhbərlik edən qullarağası əmri altında olan bütün minbaşı, yüzbaşı və digər qulamlar məhz onun razılığı və əmri ilə bu vəzifələrə təyin edilirdi. Qullarağası tərəfindən həmin vəzifələrə təyin olunan qulamlar yüksək divan vəzirinin yazılı fərmanından sonra öz qabiliyyətlərinə və rütbə dərəcələrinə uyğun olaraq tiyul, müavinət, hədiyyələr və illik maaş alırdılar. Maaş vərəqini baş vəzir qullarağasına yollayırdı. O, öz möhürünü və tuğrasını maaş vərəqinə vuraraq onu təsdiq etdikdən sonra maaşlar ödənilirdi.[96] Qulamların hərbi rütbələrin siyahısını həmin hərbi idarənin vəziri və mustovfisi qullarağasının iştirakı ilə şaha təqdim edirdi. Qullarağası gecə kampaniyaları zamanı qarovul otağında tabeliyində olanlarla birlikdə olmalı idi. Qullarağası illik 2 min tümən məvacib alırdı. Məclisdə, sol tərəfdə qorçubaşından sonra oturardı. Qullarağası qulamlara aid iddialara, adi mübahisələrə və digər məsələlərə baxıb həll edirdi; şəriət işlərində şəriət hakimlərinə müraciət edirdi. Onların adi işləri və divan vergiləri ilə bağlı istəkləri ilə bağlı baş vəzirə müraciət edirdi.[97] Qulamlara maaşın verilməsini qulamların vəziri hazırlayardı. Onun illik gəliri təxminən min tümənə çatırdı. Məclisdə o, qorçi vəzirindən sonra oturardı. Qulamların maliyyə işlərinə məsuliyyəti mustovfi daşıyırdı. Onun sərancamında divanın 4 mirzəsi çalışırdı. O, 30 tümən maaş alırdı. Məclisdə sol tərəfdə dəftərxana nazirindən sonra otururdu.[98]

Yeni yaradılan nizami orduda süvari qullar dəstəsi ilə yanaşı, piyada tüfəngçilər korpusu da təşkil olunmuşdu. XVI əsrdə Səfəvi ordusunda odlu silahdan istifadə edilsə də, ayrıca tüfəngçilər qoşun növü yox idi. I Şah Abbasın göstərişi ilə tüfəngçilər alayının yaradılmasına başlanıldı. İsgəndər bəy Münşi bu barədə yazır: I Şah Abbas "... cağatay oymaqlarından, ərəb əşirətlərindən və Xorasanın, Azərbaycanın və Təbəristanın əcəm qəbilələrindən neçə min nəfər [atdıqları güllələrlə düşmən qoşununun] sayını azaldan tüfəngçini şərəfli üzənginin mülazimlərinə çevirdi".[99] Nizami tüfəngçilər alayı əsasən şəhər əhalisinin aşağı təbəqələrindən toplanırdı. Piyada qoşun növü olan tüfəngçilər alayında 20 min əsgər var idi və onlar başlarına zolaqlı şiş papaq qoyurdular. Sıravi tüfəngçinin illik məvacibi 4-5 tümən idi.[100] Tüfəngçilər

---

[93]İ. B. Münşi, a*.g.e., II Kitab*, s. 1611.
[94]P. della Valle, *a.g.e.,* s. 346.
[95]Mirzə Əli Nağı Nasiri, *Əlkabu məvacib-i dövre-i salatin-i Səfəviyyə,* (Təshih: Yusif Rəhimli), Təbriz 1371, s. 16.
[96]M. Rəfia, *a.g.e.,* s. 192-193; M. R. Ansari, *a.g.e.,* s. 34; E. Erdoğan, *a.g.e.,* s. 122-123.
[97]M. R. Ansari, *a.g.e.,* s. 34-35.
[98]M. Rəfia, *a.g.e.,* s. 242; M. R. Ansari, *a.g.e.,* s. 78; E. Erdoğan, *a.g.e.,* s. 131.
[99]İ. B. Münşi, *Tarix-i aləmara-yi Abbasi,* s. 711.
[100]Bax: P. della Valle, *a.g.e.,* s. 344, 345; Z. Bayramov, *a.g.e.,* s. 81.

şaha məxsus qoşun növü olub, mahallar üzrə səfərbər edilirdi və ilboyu maaş aldıqlarına görə ehtiyac olan kimi dərhal təyin olunmuş hərbi xidmət yerinə gəlirdilər. Döyüş zamanı qoşunun hərəkət məsafəsinin uzaqlığı və çevik hərəkəti nəzərə alınaraq tüfəngçilərin hər birinə at verilirdi. Onların hər yüz nəfərinin rəisi yüzbaşı və ümumi başçıları isə tüfəngçibaşı adlanırdı.[101] 1590-cı ildə İsfahanda 70 min tüfəngçinin səfərbər olunmasına baxmayaraq, 1601-ci ildə I Şah Abbas Bəlx səfərinə 10 min tüfəngçi ilə çıxmışdı.[102]

I Şah Abbasın hakimiyyətinin ilk illərində yaradılan xüsusi tüfəngçilər korpusunun hərbi əməliyyatlarda iştirakı ilə bağlı ilk məlumat 1593-cü ilə aiddir. Həmin ildə Fərhad xan Qaramanlının başçılığı altında Səfəvi qoşunu Gilan hakimi Xan Əhmədin qiyamını yatırmaq məqsədilə Səfidrud çayını keçərək Gilan əmirləri ilə döyüşə girmiş, şahın tüfəngçilər alayının odlu silahlardan geniş istifadə etməsi nəticəsində onların iradəsi qırılmış, Əmir Abbasın başçılıq etdiyi qoşun döyüş mövqeyindən qaçmış, Talişə Kuli və digərlərinin rəhbərlik etdiyi dəstələr məğlub edilmişdi.[103] 1593-cü ildə Nişapur şəhəri Şeybanilərdən azad edilən zaman I Şah Abbas tərəfindən Dərviş Məhəmməd xan Nişapur hakimi təyin edilmiş, İsfahan tüfəngçilərinin başçısı Mir Fəttah Minbaşının rəhbərliyi altında 300 nəfərlik İsfahan tüfəngçisi Nişapur qalasında yerləşdirilmişdi.[104] 1607-ci ilin yazında Səfəvi ordusu Dərbənd şəhəri azad edilən zaman I Şah Abbas "işgüzarlığı ilə məşhur olan xasseyi-şərifə qulamı Mənuçöhr bəyə bir dəstə cığatay, xorasanlı, iraqlı və bafqi tüfəngçiləri verib onu qalanın kutvalı təyin etdi, hücumla narınqalanı tutmaq əmrini verdi".[105]

Tüfəngçilər korpusunda xidmət edən sıravi tüfəngçilər 7-12 tümən illik məvacib alırdılar.[106] Yeni yaradılan tüfəngçi hərbi hissələri Səfəvi şahının ümidlərini doğrultdu. Belə ki, 1593-cü ildə Əbdülmömin xanın başçılığı ilə özbəklər Nişapur qalasına hücum edən zaman qalanın mühafizəsini həyata keçirən Dərviş Məhəmməd xan Rumlu qaziləri və İsfahan tüfəngçiləri ilə birlikdə qalanın bürclərini, divarlarını və darvazalarını müdafiə etməklə düşmənə rəşadətlə müqavimət göstərdilər və düşmənin qalanı ələ keçirməsinə imkan vermədilər.[107] 1595-ci Biyəpəs Gilanının hakimi Əli xanın və Kəskər hakimi Əmirə Müzəffərin qiyamının yatırılmasında Fərhad xan Qaramanlının başçılıq etdiyi nizami orduya İsfahandan

---

[101] İ. B. Münşi, *Tarix-i aləmara-yi Abbasi,* s. 711.
[102] W. Floor, *a.g.e.,* s. 181.
[103] İ. B. Münşi, *a.g.e., I Kitab,* s. 843; K. Babayev, *a.g.m.,* s. 24.
[104] İ. B. Münşi, *a.g.e., I Kitab,* s. 848.
[105] İ. B. Münşi, a*.g.e., II Kitab,* s. 1323-1324.
[106] V. Minorsky, *a.g.e.,* s. 155.
[107] Bax: İ. B. Münşi, a*.g.e., I Kitab,* s. 867-868.

gətirilmiş min nəfərlik tüfəngçilər dəstəsi də qoşulmuş və bu birləşmiş qüvvələrin səyi nəticəsində qiyam yatırılmışdı.[108]

1598-ci ildə artıq nizami tüfəngçilər korpusunun yaradılması demək olar ki, başa çatdırıldı. Belə ki, həmin ilin yayında Səfəvi şahının Xorasana hərbi səfəri zamanı qərara alındı ki, on min nəfər tüfəngçi toplanaraq hümayun orduya qoşulsun.[109] Tüfəngçilər ilk dövrlərdə döyüş yerinə piyada hərəkət edirdilər. Şübhəsiz ki, bu vəziyyət ordunun yavaş hərəkət etməsinə səbəb olurdu. Buna görə bir müddət sonra tüfəngçilərin sürətli hərəkətini təmin etmək məqsədilə onlar atla təmin edildilər. Onlar hərbi səfərə çıxdıqları zaman atdan istifadə edir, döyüş yerinə gəldikləri vaxt atdan enərək piyada vəziyyətdə vuruşurdular.[110] Bir qayda olaraq buna əməl edilsə də, bəzən tüfəngçilər atın üstündə də atəş açmaq məcburiyyətində qalırdılar. Bu zaman onlar tüfəngin dəstəyini əlinin üzərinə qoyaraq at üstündə atəş açmağı öyrənmişdilər.[111] Adam Oleari Səfəvi ordusunu təsvir edərək yazır: "Hamı, hətta piyadalar da at minmişdilər və döyüş vaxtı onlar atdan düşür və bizim draqunlar (Avropa ölkələrində qarışıq qoşun hissələri – red) kimi vuruşurlar. Onlar muşketlərlə silahlanmışdılar və ilk dəfə muşketlər I Şah Abbasın dövründə tətbiq edilmişdi. Süvarilər isə ox, yay və nizələrlə silahlanmışdılar".[112]

Pietro Della Vallenin qeyd etdiyinə görə, Qızılbaş tüfəngçiləri öz məharətlərinə görə özbək tüfəngçilərindən daha üstün olmuşdu. Özbək döyüşçülərindən biri görüş zamanı Della Valleye bildirmişdi ki, "Mənim ölkəmdə top və tüfəng olsa da, döyüşdə yalnız qılınc, ox və yaydan istifadə olunur. Çünki Qızılbaş tüfəngçiləri savaşda bizdən daha yaxşıdırlar".[113] İsgəndər bəy Münşi Səfəvi tüfəngçilərinin hərbi məharəti barədə yazır: "Qarışqanı lap gözündən vuran və atdıqları murad oxları hədəfdən yayınmayan ... tüfəngçilər öz ... tüfəng güllələrini dolu kimi yağdırmağa" qadirdirlər.[114]

Tüfəngçibaşının komandanlığı altında minbaşı, yüzbaşı və onbaşı rütbələrini daşıyan tüfəngçilər olurdu. Minbaşı rütbəsini daşıyanlar vilayət tüfəngçilərin komandanı olurdu və Xorasan, İsfahan, Təbriz və ya Yəzd tüfəngçilərinin minbaşısı kimi həmin əyalətin adını daşıyırdılar.[115] Tüfəngçibaşı qüdrətli dövlətin dörd sütununa mənsubdur və bütün minbaşıların, yüzbaşıların, carçıların, tüfəngçilərin, mühafizəçilərin, balta daşıyanların ağsaqqalıdır. Onlar üçün maaşların, tiyulların, illik müavinətlərin, mükafatların və bəratların təyin edilməsi

[108]İ. B. Münşi, *a.g.e., I Kitab*, s. 914-915; K. Babayev, *a.g.m.*, s. 25; H. Abdullayev, *a.g.e.*, s. 89.
[109]İ. B. Münşi, a.*g.e., I Kitab*, s. 1006.
[110]P. della Valle, *a.g.e.*, s. 344.
[111]P. Della Valle, *a.g.e.*, s. 345.
[112]A. Oleari, *a.g.e.*, s. 885; K. Babayev, a.g.m., s. 25.
[113]P. della Valle, *a.g.e.*, s. 203; E. Erdoğan, *a.g.e.*, s. 98.
[114]İ. B. Münşi, a.*g.e., II Kitab*, s. 1612-1613.
[115]W. Floor, *a.g.e.*, s. 181.

tüfəngçibaşının icazəsi və ali divan vəzirinin yazılı fərmanından sonra həyata keçirilir. Onlara aid fərman və qərarların mətnləri tüfəngçibaşının möhürü ilə möhürlənirdi.[116] Həmin insanlar arasında yaranan adi məhkəmə çəkişmələri tüfəngçibaşı tərəfindən həll olunurdu, tüfəngçilərin vəsatətlərinə baxmaq da onun vəzifəsi idi. Tüfəngçilərin siyahısını tüfəngçibaşının iştirakı ilə sözügedən idarənin vəziri və mustovfisi şaha təqdim edirdi.[117]

Tüfəngçilərin başlıca silahı tüfəng olsa da, hücum zamanı qılınc və xəncərdən, müdafiə zamanı isə qalxandan istifadə edirdilər.[118] Pietro Della Valle Qızılbaş tüfəngçilərinin tüfəngləri barədə yazır: "Tüfəngçilərin istifadə etdiyi tüfənglər normal tüfənglərdən daha qısa və yeni tüfənglərdən daha kiçikdir. Tüfəngin lüləsinin ucunda dəmir ayaqlar, lülənin ucundan qundağa qədər bir asılqan vardı. At üzərində silahdan istifadə edən zaman döyüşçülər bu ayaqları əlinin üzərinə qoyur və atəş açırdılar. Əgər onlar yerə uzanaraq və ya ayaq üstə atəş açmaq istəsələr asılqanı çıxarır və ayaqları yerə dayayırdılar. Bu ayaqlar önəmli işlər görürdü".[119]

Tüfəngçilərin də öz vəzirləri və mustovfiləri fəaliyyət göstərmişdi. Tüfəngçi vəziri məclisdə sağ tərəfdə ləşkərnevisin arxasında oturardı. Onun illik təxminən min tümən gəliri olurdu. Tüfəngçilərin maliyyə işlərinə mustovfi məsuliyyət daşıyırdı. Onun xidmətində divanın 4 nəfər mirzəsi çalışırdı. O, tüfəngçilərə yeni qoşulan, ölən və uzaqlaşdırılan tüfəngçilərin qeydini aparır, kimə nə qədər maaş veriləcəyini müəyyən edirdi. O, 30 tümən maaş alırdı. [120]

I Şah Abbasın hərbi islahatları içərisində topçular korpusunun yaradılması xüsusi yer tuturdu. XVI əsrdə Səfəvilərin apardığı müharibələrdə toplardan da istifadə olunmuşdu. Ancaq I Şah Abbas Səfəvi dövlətinin tarixində ilk dəfə mərkəzləşdirilmiş artilleriya korpusu yaradılmasına xüsusi diqqət yetirdi. Artilleriya (topçu) alayı daha çox şəhər sənətkarlarının içərisindən toplanılırdı və bu alaya topçubaşı rəhbərlik edirdi. I Şah Abbasın dövründə 500 topa 12 min topçu xidmət göstərirdi.[121]

I Şah Abbas dövründə yeni yaradılan topçu alayları Təbrizdə, İsfahanda, Bəndər-Abbasda və Məşhəddə yerləşirdi. İsfahanda 3 piyada və 3 süvari topçu alayı, qeyd olunan digər şəhərlərin hər birində isə bir süvari topçu alayı yerləşdirilmişdi.[122] Bütün ölkədə olduğu kimi, hər bir sərhəd qalasında da bir neçə top və topçu yerləşdirilmişdi. Toplar bir qayda olaraq qalalarda yerləşdirilirdi və lazım gəldikdə bir yerdən başqa yerə göndərilirdi. Bəzən topların

[116]M. R. Ansari, *a.g.e.*, s. 38.
[117]M. R. Ansari, *a.g.e.*, s. 38-39.
[118]E. Erdoğan, *a.g.e.*, s. 100.
[119]P. della Valle, *a.g.e.*, s. 345.
[120]M. Rəfia, *a.g.e.*, s. 242.
[121]V. Minorsky, *a.g.e.*, s. 33.
[122]Cəmil Quzanlı, *Tarixe nezamiye İran*. Celde əvvəl. Tehran 1315, s. 376; H. Abdullayev, *a.g.e.*, s. 92.

göndərilməsi müəyyən çətinliklər yaratdığı nəzərə alınaraq top tökən ustalar Təbrizdən və ya İsfahandan həmin məntəqəyə göndərilirdi və onlar həmin qalada yeni toplar tökürdülər. Şirvan hakimi təyin olunan Konstantin xan 1606-cı ildə hücuma keçərək Şamaxı qalasını mühasirəyə aldı. Onun yanında qalanı tutmaq üçün lazımi hərbi sursat olmadığından, Səfəvi şahından toptökmə qəliblərini, qurğuşun, barıt və bir neçə nəfər topçu göndərilməsini xahiş etmişdi. I Şah Abbasın əmri ilə Təbrizdən topçu Əbuturab bəy və işçiləri, həmçinin top tökmək üçün zəruri mallar ona göndərildi.[123] 1604-cü ilin yazında İrəvan qalasının mühasirəsi zamanı I Şah Abbasın göstərişi ilə top tökmək üçün məşhur top ustası təbrizli Heydər bəy Ənisin oğlu Topçubaşı Bərxudar bəy Təbrizdən İrəvan şəhərinə dəvət edildi və top tökülməyə başlanıldı. Eyni zamanda Təbrizə adam yollayaraq qaladakı 90 kq ağırlığında daş mərmilər ata bilən balyeməz topu və bir neçə digər topu İrəvana gətirdilər.[124] 1605-cı ilin yazında Səfəvi ordusu Gəncə şəhərini mühasirəyə alan zaman I Şah Abbas Topçubaşı Bərxudar bəy Ənisə göstəriş verdi ki, Bərgüşadda hazırladığı top qəliblərini gətirib top tökməyə başlasın.[125] Göründüyü kimi, toplardan əsasən şəhərlərin və qalaların müdafiəsi və azad edilməsi zamanı istifadə edilirdi. Adam Oleari yazır ki, Səfəvilər dövlətində topdan daha çox qalaların müdafiəsi zamanı istifadə olunurdu.[126]

K. Babayev yazır ki, I Şah Abbasın dövründə Səfəvilər dövlətində 500 top və 4 min topçu olmuşdur.[127] J. Şarden, I Şah Abbasın 12 min nəfərlik topçu korpusunu yaratdığını qeyd edir.[128] Topçu korpusuna topçubaşı rəhbərlik edirdi. O, topxananın minbaşı, yüzbaşı, topçu və carçıların ağsaqqalıdır. O, ali divanın yüksək rütbəli vəziri tərəfindən imzalanmış icazədən sonra tabeliyində olanlara tiyullar, illik müavinətlər və mükafatlar alırdı. Minbaşı, yüzbaşı, topçu, carçı, topxana rəisi və topxananın tabeliyində olan insanların maaşları, tiyulları, illik müavinətləri topçubaşının hesabatı əsasında verilirdi.[129]

Topçubaşı topxananın topçuları və işçiləri ilə bağlı mübahisəli işlərdə araşdırma aparır və həqiqəti müəyyən edirdi; adı çəkilən şəxslərə xidmət, tiyul, pul və mükafatların verilməsi haqqında fərman və sərəncamları möhürlə təsdiq edirdi. Bu idarənin vəziri və mustovfisi topçubaşının iştirakı ilə şahın hüzurunda hesabat vermək üçün bütün topçuların rütbələrinin

[123]İ. B. Münşi, *a.g.e., II Kitab*, s. 1232; K. Babayev, a.g.m., s. 27.
[124]İ. B. Münşi, *a.g.e., II Kitab*, s. 1172, 1174.
[125]İ. B. Münşi, *a.g.e., II Kitab*, s. 1283.
[126]A. Oleari, *a.g.e.,* s. 885.
[127]K. Babayev, a.g.m., s. 27.
[128]J. Şarden, *a.g.e.,* c. 3, s. 1205.
[129]M. R. Ansari, *a.g.e.,* s. 43-44.

siyahısını təqdim edirdi. Topçubaşının illik məvacibi 500 tümən idi. Məclisdə sağ tərəfdə divanbəyidən sonra otururdu.[130]

Beləliklə, I Şah Abbasın həyata keçirdiyi hərbi islahat nəticəsində bilavasitə Səfəvi şahına tabe olan təqribən 116 minlik nizami ordu yaradıldı. Onlardan 20 mini tüfəngçilər dəstəsi, 12 mini şah qulamları, 12 mini topçular korpusu, 12 mini qorçular dəstəsi, 60 mini isə əyalətlərdə yerləşən hərbi hissələr idi.[131] I Şah Abbasın hakimiyyətinin sonlarında Səfəvi sarayına göndərilən ingilis elçisini müşayiət etmiş T.Herbet yazır ki, Səfəvi şahı qısa müddət ərzində 300 minlik süvari və 70 minlik tüfəngçi dəstəsi toplaya bilir, lakin onun nizami ordusu nadir hallarda 50 mini keçə bilir.[132]

[130]M. R. Ansari, *a.g.e.*, s. 43-44; Z. Bayramov, *a.g.e.*, s. 98.
[131]V. Minorsky, *a.g.e.*, s. 32-35; K. Babayev, *a.g.e.*, s. 12; K. Babayev, a.g.m., s. 28.
[132]Thomas Herbert, *Travels in Persia 1627-1629*, (Abridged and ed. Sir Foster), Broadway Hause, Carter lane, London 1928, p. 242-243.

## Nəticə

XVI əsrin son rübündə Azərbaycan Səfəvi dövləti dərin sosial-iqtisadi və siyasi böhran keçirirdi. Daxili vəziyyətin gərginləşdiyi bir zamanda Səfəvi dövləti xarici təcavüzə məruz qalmışdı – Osmanlı dövləti və Şeybanilər Qızılbaş ordusu üzərində qələbələr qazanaraq bir sıra əraziləri ələ keçirmişdi. Hərbi əməliyyatlar nəticəsində təsərrüfat iflic vəziyyətinə düşmüş, kənd təsərrüfatı tənəzzülə uğramış, şəhərlər boşalmış, kənd əhalisi var-yoxdan çıxmışdı. Qızılbaş əmirləri arasında çəkişmələr, feodal ara müharibələri geniş vüsət almış, ayrı-ayrı vilayətlərdə üsyanların baş verməsi təhlükəsinin artması I Şah Abbası geniş miqyaslı islahatlar həyata keçirməyə vadar etmişdir.

I Şah Abbasın islahatları nəticəsində, Səfəvi dövlət və ordu təşkilatında təxribatçılıq edən və intizamı pozan ünsürlər təmizlənmiş oldu. Şah, bunların yerinə həm mərkəz, həm də vilayətlərin idarə edilməsinə yeni və gənc əmirləri cəlb etdi. I Şah Abbas tanınmamış gəncləri yüksək mövqelərə gətirərək onların yardımı ilə iqtidar həvəslisi olan yaşlı əmirləri ortadan qaldırdı. Yaşlı əmirlərin öldürülüb yerlərinə şaha bağlı gənc əmirlərin gətirilməsi ilə dövlət idarəçiliyində əhəmiyyətli vəzifələri üzərinə götürən, güclü, zəngin və ən əhəmiyyətlisi şaha son dərəcə bağlı yeni bir aristokratik zümrə ortaya çıxmağa başladı. Bu yeni zümrəyə daxil olmanın şərtı isə fərdi qabiliyyət və şaha sədaqət idi.

I Şah Abbas itaətsiz Qızılbaş əmirlərinin çıxardıqları problemləri həll etmək, onların mənsub olduqları tayfalarla əlaqələrini zəiflətmək və özbaşınalığın qarşısını almaq üçün babası I Şah Təhmasib zamanında həyata keçirilən bir layihəni davam etdirməyə çalışmışdı. Belə ki, I Şah Abbas, Qızılbaş uşaqlarını kiçik yaşdan saraya almış, onlara təhsil və tərbiyə verərək özünə sadiq vəzifəli kadrlar hazırlamaq istəmişdi. Beləliklə, öyrədilib, şaha son dərəcə sadiq yetişdirilən və tayfa əlaqələrindən məhrum olan Qızılbaş gənclər, dövlət işlərində əhəmiyyətli vəzifələrə gətirildikləri kimi, şahın saraylarında (hərəmdə, sarayın girişində, bağçasında, çıxışında) vəzifəyə götürülürdü. I Şah Abbas onları diplomatik və həssas vəzifələrə göndərməyə də meylli idi. I Şah Abbas bu tədbirlərlə bürokratik və strateji mövqelərdə oturan türk olmayan ünsürləri uzaqlaşdıraraq, özünə sadiq türk gənclərin dövlət idarə sistemində iştirak etməsini hazırlamışdı. Lakin şahın bu düşüncəsi, Səfəvi ordu və dövlət nizamını sanki yenidən təşkil edəcək qulam sisteminin dövrəyə daxil olması ilə hər halda tam olaraq yerinə yetirilməmişdi.

I Şah Abbasın islahatları nəticəsində Azərbaycan Səfəvi dövləti nəinki əvvəlki qüdrətini bərpa etdi, hətta daha da gücləndi. Qızılbaş əyanlarının özbaşınalığına son qoyuldu, yerlərdə ayrı-ayrı "sülalə hakimlərinin" aradan qaldırılması nəticəsində mərkəzi hakimiyyət

möhkəmləndirildi və tam siyasi sabitlik bərqərar oldu. Dövlətin əsas dayağı olan daimi nizami ordu yaradıldı, dövlətin müdafiə qabiliyyəti gücləndirildi. I Şah Abbasın tədbirləri nəticəsində Qızılbaş əyanları dövlətə sədaqətli qulluq yolu tutduqlarından həm mərkəzi, həm də yerli idarəetmə sistemində Qızılbaş türk əyanları öz əvvəlki üstün mövqelərini qoruyub saxladılar. İsgəndər bəy Münşi 1628-ci ildə Səfəvi dövlətində yüksək vəzifə tutan 92 əmirdən 76-nın adını qeyd edir ki, bunların da 54-ü türk, 15-i Qızılbaşlığı qəbul etmiş və türk dilindən başqa heç bir dili bilməyən qulam idi. Qullar və oturaq əhaliyə mənsub tüfəngçilər Qızılbaşlara qarşı müvazinət ünsürü kimi yaradılsa da, yarımköçəri türk tayfaları əskidə olduğu kimi yenə də dövlətin ana dirəyi olub, öz nüfuzunu qoruyub saxlamışdılar. Dövlət xidmətindəki taciklər heç bir zaman Səlcuqlar dövründə olduğu kimi, dövlətin siyasi həyatında mühüm rollar oynamamışlar.

I Şah Abbasın hərbi islahatları nəticəsində güclü nizami ordu yaradıldı ki, onun əsas hissəsini yeni yaradılmış nizami hissələr – tüfəngçilər, qulamlar və topçular təşkil edirdilər. Hərbi islahatlar nəticəsində orduda odlu silahlarla silahlanmış oturaq əhalinin mövqeyi gücləndi. Qızılbaş tayfaları ilə yanaşı, orduda hərbi xidmətə qeyri-Qızılbaş tayfaları, Xorasanda yaşayan yerli tayfalar cəlb edilməyə başladı. Səfəvi şahının ayrı-ayrı vilayətlərə qulamları və qorçulari vali təyin etməsi Qızılbaşların təsirini zəiflətsə də, tamamilə sarsıda bilmədi. Odlu silahlarla silahlanmış nizami ordunun yaradılması Səfəvi dövlətinin hakim dairələrinə uğurlu müharibələr aparmaqla yanaşı, mərkəzi hakimiyyəti zəiflətməyə çalışan Qızılbaş əyanlarının müqavimətini qırmaq üçün başlıca dayaq rolunu oynadı.

## Mənbələr

*A Chronicle of Carmelites in Persia: The Safavids and the Papal Mission on the 17 and the 18 centuries,* (Ed.H.Chick, İntroduction Rudi Matthee), C in 2 volumes, Vol.1, London 2012.

ABDULLAYEV, H., *Azərbaycan Səfəvi dövlətinin daxili və xarici siyasəti,* "Apostrof-A", Bakı 2022.

ANSARI, M. R., Dastur al-muluk (Ustav dlya gosudarey), Predisloviye, perevod [s per-sid¬skogo], prime¬chaniya i ukazateli A.B.Vil'danovoy; Institut vostokove¬deniya imeni Abu Ray¬khana Beruni, Tashkent 1991.

AYDOĞMUŞOĞLU, C., "Şah Abbas (1587-1629) Zamanında Safevi Devlet Teşkilatında Yapılan Düzenlemeler", *Türk Dünyası Araştırmaları,* S. 204, Haziran 2013, s. 83-104.

................................., C., *Şah Abbas ve zamanı (1587-1629),* Berikan Yayınevi, Ankara 2013.

BABAYEV, K., "Voyennaya reforma shakha Abbasa I", Vestnik Moskovskogo Universi¬teta. Ceriya Istoriya, 1973, №1, s. 21-29.

..................................., "Khasse (lichnyye zemel'nyye vladeniya) Shakha Abbasa I (1587-1629)", Vestnik Moskovskogo Univer¬siteta, seriya XIV. Vostokovedeniye. 1973, №2, c. 15-21.
..................................., Vnutrennaya politika Sefevidskogo Irana v kontse XVI – nachale XVII vekov: Avtoref. dis. kand. ist. nauk. Moskva 1971.

BAYRAMOV, Z.H., *Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi,* ADPU, Bakı 2006.

Broadway Hause, Carter lane, London 1928.

CEMELLİ, K., *Səfərnamə* (Fars dilindən tərcümə Şəmsi Pənahoğlu), Avropa, Bakı 2019.

DELLA BALLE, P., *Səfərname-ye Pyetro della Valle,* (Tərcome-ye əz mətne əsli-ye italiyayi doktor Şücaəddin Şəfa), Tehran 1348.

ERDOĞAN, E., *Safevi Devletinin Askeri Teşkilatı,* Yeditepe Yayınevi, İstanbul 2019.

.........................., Safevi Ordusunda Bir Birlik-Kurçiler, *Ankara Üniversitesi Dil ve Tarih-Coğrafya Fakültesi Dergisi,* 55, 2 (2015), s. 75-88.

ƏFƏNDİYEV, O. Ə., *Azərbaycan Səfəvi dövləti,* Şərq-Qərb, Bakı 2007.

FLOOR, W., *Safavid Government Institutions,* Mazda Publishers, California 2001.

HANEDA, M., "Safevi Hassa Birliklerinin Tekamülü", (Çev. İlker Külbilge), *Cihannüma Tarih ve Coğrafya Araştırmaları Dergisi,* S. II/1-July 2016, s.125-150.

........................, “The Evolation of the Safavid Royal Guard”, (Translated: Rudi Matthee), *Iranian Studies*, 22, (2-3), 1989, p. 57-85.

HERBET, T., *Travels in Persia 1627-1629,* Abridged and ed. Sir Foster, Broadway Hause, Carter lane, London 1928.

QUZANLI, C., *Tarixe nezamiye İran*. Celde əvvəl, Tehran 1315.

MİNORSKY, V. F., *Tadhkirat al-Muluk. A Manual of Safavid Administration*. Persian Text in Facsimile, (Translated and explained by V.Minorsky), Cambridge 1980.

MOUSAVİ, M. A., “The Autonomous State In Iran: Mobility And Prosperity in The Reign Of Shah Abbas The Great (1587-1629)”, *Iran And The Caucasus*, 12, 2008, s. 17-33.

MUSƏVİ T., *Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI-XVIII əsrlər),* Elm, Bakı 1977.

MÜNŞİ, İ. B., *Dünyanı bəzəyən Abbasın tarixi, I Kitab,* (Fars dilindən çevirən Şahin Fərzəliyev t.e.d., prof.), Şərq-Qərb, Bakı 2010.

............................., *Dünyanı bəzəyən Abbasın tarixi. II Kitab*. (Fars dilindən çevirən Şahin Fərzəliyev, t.e.d., prof.), Şərq-Qərb, Bakı 2014.

........................., *Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi), (*Fars dilindən tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifləri AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Oqtay Əfəndiyev, tarix elmləri namizədi Namiq Musalı), Təhsil, Bakı 2009.

NASİRİ, M. Ə. N., *Əlkabu məvacib-i dövre-i salatin-i Səfəviyyə*, Təshih: Yusif Rəhimli. Təbriz 1371.

OLEARI, A., Podrobnoye opisaniye puteshestviya Golshtinskogo posol'stva v Mos-koviyu i Persiyu v 1633, 1636 i 1639 godakh. (Per. s nemets. P.Barsova). Izd-vo Mos-kovskogo Universiteta, Moskva 1870.

PETRUSHEVSKIY, I.P., Ocherki po istorii feodal'nykh otnosheniy v Azer¬bay¬dzhane i Ar¬menii v XVI -nachale XIX v. Izd-vo. Leningradskogo Gosu¬darstven¬nogo Universiteta, Leningrad 1949.

RAKHMANI, A. A., Azerbaydzhan v kontse XVI i v – XVII veka. Elm, Baku 1981.

RƏFİA, M., *Düstürül-Müluk,* Be kuşeşe Məhəmməd İsmail Marçinkovski. (Tercumeyi farsi Əli Qurdabadi). Mərkəz-i Esnad və Tarix-i Diplomasi. Tehran 1385.

ROEMER, H. R., “The Safevid Period”, *The Cambridge History Of Iran,* c. 6, Cambridge University Press, Cambridge 1986, pp. 189-350.

Rossiya i Yevropa glazami Orudzh-Beka Bayata-Don Zhuana Persidskogo. Perevod s angliyskogo, vvedeniye, kommentarii i ukazateli Oktaya Efendiyeva i Akifa Farzaliyeva. Izd-vo SPbGU, Sankt-Peterburg 2007.

SAVORY, R., “The Qizilbash, Education And The Arts”, *Studies on The History of Safavid Iran*, Variorum Reprints, London 1983, pp. 168-176.

SƏMİA, M., *Təzkirət əl-müluk,* Be kuşeşe doktor Səid Məhəmməd Dəbirsiyaqi, Tehran 1368.

SÜMER, F., “Safevi Tarihi İle İlgili İncelemeler: I. ve II. Abbas Devirleri”, *Türk Dünyası Araştırmaları,* S. 69, Aralık 1990, İstanbul 1990, s. 9-32.

........................, *Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin rolu*. TTK Basımevi, Ankara 1999.

ŞARDEN, J., *Səfərname-ye Şarden,* (Tərcoma-ye Eğbal Yəğmai), C. 3. Tehran 1374.

TAVARNİER, J. B., *Sefername-i Tavernier,* (Tercumeyi farsi Həmid Ərbab Şirani), Tehran 1382.